*Bizim Xəzər Dəniz Gəmiçiliyinin donanması Azərbaycanın çox böyük sərvətidir. O, böyük işlər görür və gələcəkdə də görəcəkdir.*
*Heydər ƏLİYEV*

ASCO 1858

# DƏNİZ

"AZƏRBAYCAN XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ" QSC-nin qəzeti

30 iyul 2019-cu il № 53-56 (9335) | Qəzet 1931-ci ildən nəşr olunur | www.seanews.az | Qiymətı 50 qəpik

## BU SAYIMIZDA

### ASCO-nun gəmiləri "Abşeron" qaz-kondensat yatağında borudüzmə işlərini davam etdirirlər



*Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Abşeron" qaz-kondensat yatağında boruların döşənməsi üzrə işlər davam edir.*

Səh. 2

### Gələcəyin dənizçiləri "YayFest - gənclər düşərgəsi" layihəsində iştirak ediblər



*Cəmiyyətimizin hər bir təbəqəsi kimi Azərbaycan gəncliyi də daim ölkə rəhbərliyinin qayğısını öz üzərində hiss edir. Həm təhsil, həm də iş fəaliyyətlərində onların yanında olmaqla yanaşı, istirahət vaxtlarının da səmərəli və maraqlı keçməsi dövlətin diqqət mərkəzindədir.*

Səh. 3

### Xəzər Dəniz Neft Donanmasının bir qrup dənizçisinə mükafatlar təqdim olunub



*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Xəzər Dəniz Neft Donanmasında növbədən qayıdan bir qrup dənizçiyə mükafatlar təqdim olunub.*

Səh. 4

### 28 yaşlı "Ən yaxşı mexanik"



*Peşəkarlıq vacib tələbdir. Amma hər hansı sahədə yüksək pillələri fəth etmək üçün təkcə peşəkar olmaq kifayət etmir. Başqa məqamlar da var. Bunlardan biri də tərbiyədir.*

Səh. 5

### "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda istehsalat təcrübəsi tələbələrin ürəyincədir



*Azərbaycan Dövlət Dəniz Akademiyasının (ADDA) "Gəmi energetik qurğularının istismarı və onların mühəndisliyi" ixtisasının birinci kurs tələbələri ASCO-nun "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda istehsalat təcrübəsindədirlər.*

Səh. 6

### Dənizçilərin II Spartakiadasının qalibləri mükafatlandırılıb

*"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) əməkdaşlarının II Spartakiadasına yekun vurulub.*

Spartakiadaya ASCO-nun müxtəlif strukturlarından 400 iştirakçı qatılıb.



Səh. 8

## "Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasına Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi barədə Protokolun təsdiq edilməsi haqqında

### AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasına Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi barədə 2018-ci il iyulun 20-də Moskva şəhərində imzalanmış Protokol təsdiq edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 27 iyun 2019-cu il.

## "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya"ya I və II Düzəlişlərin təsdiq edilməsi barədə

### AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya"ya 2001-ci il 27 fevral tarixli I Düzəliş və 2004-cü il 4 iyun tarixli II Düzəliş təsdiq edilsin.

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***

Bakı şəhəri, 9 iyul 2019-cu il.



## "Dövlət tibb müəssisələrində əlilliyi olan şəxslər üçün dövlət büdcəsi hesabına həyata keçirilməyən tibbi xidmətlərin növləri" təsdiqlənib

***Baş Nazir Novruz Məmmədov "Dövlət tibb müəssisələrində əlilliyi olan şəxslər üçün dövlət büdcəsi hesabına həyata keçirilməyən tibbi xidmətlərin növləri"nin təsdiq edilməsi barədə Qərar imzalayıb.***

Qərar "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının 1.1.7-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə imzalanıb.

Bildirilir ki, bu Qərarda dəyişikliklər Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə"nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.



Dövlət tibb müəssisələrində əlilliyi olan şəxslər üçün dövlət büdcəsi hesabına həyata keçirilməyən tibbi xidmətlər aşağıdakılardır:

- xəstəliklərin anonim diaqnostikası (insan immunçatışmazlığı virusu (İİV) infeksiyası, sifilis, hepatit "B" və hepatit "C" xəstəlikləri istisna olmaqla);
- tibbi kosmetoloji yardım (tibbi göstəriş əsasında plastik və bərpa (rekonstruksiya) əməliyyatları istisna olmaqla);
- tibbi göstəriş olmadan pəhrizlə bağlı müayinə və müalicələr;
- cinsin dəyişdirilməsi ilə bağlı cərrahiyyə əməliyyatı və əməliyyatdan sonrakı müalicələr;
- reabilitasiya ilə əlaqəli olmayan masaj, balneoloji prosedurlar;
- xarici ölkələrə səfərdən (müalicə, reabilitasiya və xidməti ezamiyyət istisna olmaqla) əvvəl tropik xəstəliklərə qarşı peyvəndlərin olunması;
- kontakt linzalarla görmə qabiliyyətinin korrektə olunması;
- qiymətli metallardan və keramikadan hazırlanan stomatoloji protezlərin hazırlanması və quraşdırılması.

## Ermənistanın qanunsuz fəaliyyətləri davam etdirməsi danışıqlar prosesinin pozulmasına yönəlmiş növbəti təxribatçı cəhddir

***Ermənistan hakimiyyətinin yüksək vəzifəli nümayəndəsinin işğal olunmuş ərazilərimiz boyunca "cənub istiqaməti" adlandırılan yeni yolun çəkilməsi barədə verdiyi açıqlama Ermənistanın əsl niyyətinin hərbi işğala əsaslanan mövcud status-kvonu möhkəmləndirmək və münaqişənin danışıqlar yolu ilə həllinə imkan verməmək və Azərbaycanın işğal olunmuş ərazilərini ilhaq etmək olduğunun növbəti nümunəsidir.***

AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat açıqlamasında yer alıb.

Açıqlamada qeyd edilir ki, Ermənistan tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində həyata keçirilən qeyri-qanuni fəaliyyətlər, o cümlədən infrastruktur dəyişikliyinin aparılması Ermənistanın münaqişənin sülh yolu ilə həll edilməsi barədə iddialarının riyakarlıqdan və beynəlxalq ictimaiyyəti aldatmaqdan başqa bir şey olmadığını göstərir.

"Şimal istiqaməti" adlandırılan və işğal olunmuş Kəlbəcər rayonundan çəkilmiş "Vardenis-Ağdərə" avtomobil yolu, eləcə də mərkəzi "Gorus-Laçın" avtomobil yolu təcrübəsi göstərir ki, Qubadlı və Cəbrayıl rayonlarından çəkilməsi nəzərdə tutulan yeni yol işğal altında olan bu




ərazilərin təbii və digər resurslarının daha aqressiv formada talan edilməsinə xidmət edəcək.

Ümumiyyətlə, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində infrastruktur dəyişikliyi ilə bərabər, maddi-mədəni irsin məhv edilməsi, demoqrafik tərkibin dəyişdirilməsi, mineral resursların talan edilməsi və digər bu kimi qeyri-qanuni fəaliyyətlər həyata keçirir.

ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində aparılmış faktaraşdırıcı və qiymətləndirmə missiyalarının nəticəsi olaraq hazırlanmış hesabatlarda qeyri-qanuni fəaliyyətlərin sülh prosesinə ciddi təhlükə yaratdığı təsbit olunur.

2018-ci ildə hazırlanmış "Azərbaycanın Ermənistanın işğalı altında olan ərazilərində qeyri-qanuni fəaliyyətlər: Peyk məlumatları əsasında sübutlar" adlı hesabatda Ermənistanın qeyri-qanuni əməllərinin miqyası tam aydın şəkildə özünü göstərir.

Beynəlxalq humanitar hüquq, xüsusilə 1949-cu il tarixli Cenevrə Konvensiyası və Əlavə Protokollarına əsasən, işğal olunmuş ərazilərdə qanunsuz fəaliyyətlərin aparılması qadağandır.

ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi işğal olunmuş ərazilərimizdə aparılan və danışıqlar prosesinə ciddi zərbə vuran qeyri-qanuni fəaliyyətləri ciddi şəkildə nəzərə almalıdırlar.

Münaqişənin həlli ilə bağlı münbit şəraitin yaradılmasına baxmayaraq, Ermənistanın atəşkəs rejiminin arxasında gizlənərək destruktiv şəkildə qeyri-qanuni fəaliyyətləri davam etdirməsi danışıqlar prosesinin pozulmasına yönəlmiş növbəti təxribatçı cəhddir. Buna görə bütün məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür.

Beynəlxalq öhdəlikləri tapdalayaraq işğal etdiyi ərazilərdə qanunsuz əməlləri davam etdirən Ermənistanın təxribatçı hərəkətlərini kəskin qınayır və təcavüzkardan bölgəmizdə sülh, təhlükəsizlik və rifaha qarşı yönələn əməllərinə son verməyi və işğalçı qüvvələrini Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarmağı təkidlə tələb edirik.

İşğalçı ölkənin bu kimi təxribatçı əməllərinə müvafiq şəkildə cavab vermək hüququnu Azərbaycan özündə saxlayır.

# “Bir kəmər, bir yol” layihəsi çərçivəsində Azərbaycanla əməkdaşlıq daha da genişlənəcək

***İyulun 24-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Tao Ələt qəsəbəsində yerləşən Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin fəaliyyəti ilə tanış olub.***

İqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan və Çin əlaqələrinin yüksələn inkişafından söz açıb. Bildirib ki, Azərbaycan ilə Çin arasında bütün sahələrdə yüksək səviyyədə əməkdaşlıq mövcuddur. 2015-ci il dekabrın 9-11-də Prezident İlham Əliyevin Çin Xalq Respublikasına dövlət səfəri zamanı hər iki ölkə arasında imzalanan 10 sənəd qarşılıqlı dostluq əlaqələrinin bariz nümunəsidir. Bu sənədlər içərisində “Azərbaycan Respublikası Hökuməti və Çin Xalq Respublikası Hökuməti arasında “İpək Yolu İqtisadi Kəməri”nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu”nu xüsusi qeyd etmək olar. Azərbaycan “Bir kəmər, bir yol” təşəbbüsünə qoşulan ilk ölkələrdəndir. Həmçinin bu ilin aprelində isə Prezident İlham Əliyev “Bir kəmər, bir yol” Beynəlxalq Forumunda iştirak üçün Çinə rəsmi səfər edib. Səfər Azərbaycan ilə Çin əməkdaşlığının daha da genişlənməsi baxımından xüsusi əhəmiyyətə malikdir.

Çinin Sian şəhərindən yola düşən blok qatarının iyulun 6-da Bakıya çatdığını xatırladan nazir iki ölkənin iqtisadi cəhətdən möhkəm əlaqələrə malik olduğunu deyib. Qeyd edib ki, ötən il Azərbaycan ilə Çin arasında ticarət dövriyyəsinin həcmi 1 milyard





300 milyon dollardan çox olub. Azərbaycan Avropa və Asiyanı əlaqələndirən nəqliyyat dəhlizi və öz strateji mövqeyi ilə nəqliyyat və logistika qovşağı kimi əhəmiyyətli rol oynayır. Ölkəmiz Şimal-Cənub və Şərq-Qərb beynəlxalq nəqliyyat dəhlizlərin üzərində yerləşməklə geniş tranzit imkanı yaradır.

“Azərbaycan və Çin partiyaları arasında da əməkdaşlıq yüksək səviyyədə inkişaf edir. Parlamentlərarası dostluq münasibətləri mövcuddur. İqtisadi sahədə əlaqələrimiz genişlənir. Azərbaycanın böyük potensialı var. Çin şirkətləri üçün burada əlverişli biznes mühiti mövcuddur. Çin şirkətləri ilə görüşlər keçirilir, yeni investisiyalar üçün bütün imkanlar yaradırılır. Gələcəkdə ticarət dövriyyəsinin, qarşılıqlı investisiyaların qoyuluşunun daha da artacağına inanırıq”, - deyə nazir Ş. Mustafayev vurğulayıb.

Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Tao ölkəsinin Azərbaycan ilə əməkdaşlığından məmnun olduğunu diqqətə çatdırıb. İki ölkə arasında iqtisadi əlaqələrdən danışan qonaq Azərbaycanın kənd təsərrüfatı məhsullarının Çinə idxalında maraqlı olduqlarını söyləyib. Bildirib ki, Çinin “Bir kəmər, bir yol” layihəsi çərçivəsində Azərbaycanla əməkdaşlıq daha da genişlənəcək. Qarşılıqlı investisiyaların qoyuluşu, iqtisadi əlaqələr növbəti illərdə ticarət dövriyyəsini daha da artıracaq. Çin Azərbaycan ilə bütün sahələrdə əməkdaşlıq etməkdə maraqlıdır.

“Bakı Beynəlxalq Dəniz Ticarət Limanı” Qapalı Səhmdar Cəmiyyətinin baş direktoru Taleh Ziyadov yeni Bakı Limanının fəaliyyəti, iş prinsipi barədə qonağı məlumatlandırıb. Bildirib ki, nəqliyyat dəhlizləri üzrə ölkəyə daxil olan yüklər yeni liman kompleksində toplanır, Bakı-Tbilisi-Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilərlə şərq istiqamətində daşınır. Yeni limanın ərazisi də daxil olmaqla ətraf ərazidə sərbəst iqtisadi zona yaradılır. Bu, mühüm nəqliyyat qovşağı olan limanı tranzit və daşımalar üçün daha geniş imkanlarla təmin edəcək.

Limanın keçdiyi tarixi dövrdən və hazırda gördüyü işlərdən söz açan baş direktor Bakıda yerləşən bir çox şirkətlərin daşımaları bu liman vasitəsilə həyata keçirdiklərini söyləyib. Qeyd edib ki, hazırda qeyri-neft sektorunun inkişafına və logistika sahəsinə göstərilən diqqət nəticəsində bu limanının əhəmiyyəti daha da artıb. Müasir texnoloji həllərin tətbiq olunduğu limanda professional işçi kollektivinin formalaşması istiqamətində atılan addımları da qonağın diqqətinə çatdırıb.

T.Ziyadov qeyd edib ki, liman Çin hökuməti ilə yaxından əməkdaşlıq edir, keçən il 34 ədəd yükqaldırıcı və yüknəqledici avadanlıqlar (avtoyukləyicilər, teleskopik konteyner yükləyicisi, çətin relyefli kran və sair) quruma hədiyyə olunub. Bundan başqa, son 2 ildə 30-dək liman əməkdaşı Çində qısa və uzun müddətli təlimlərdə iştirak edib, hazırda iki əməkdaş magistratura təhsili almaqdadır.

Sonra qonaq limanda yaradılan infrastrukturla tanış olub.

İqtisadiyyat naziri Ş.Mustafayev məlumat verib ki, liman 400 hektar ərazini əhatə edir və 12 yanalma körpüsünə malikdir. Körpülərin ümumi uzunluğu 2100 metrə yaxındır. Müasir dövrün ən son mühəndislik yeniliklərindən olan dəmir-beton konstruksiyalı istinad divarının uzunluğu isə 1777 metr təşkil edir. Limanda Ro-Ro tipli gəmilər üçün 2 körpü, 7 körpüdən ibarət universal quru yük və konteyner terminalı, 2 bərə körpüsü, həmçinin xidməti donanma gəmiləri üçün bir körpü inşa edilib. Limanda xidməti donanma gəmiləri üçün körpünün uzunluğu 155 metrdir və buraya eyni vaxtda 11 gəmi yan ala bilər. Limanın yükaşırma imkanı illik 15 milyon ton yük, o cümlədən 100 min konteyner təşkil edir. Növbəti mərhələdə liman 17 körpüsü ilə 25 milyon ton yük, o cümlədən 500 min konteyner yükaşırma imkanına malik olacaq.

# Nəqliyyat-tranzit sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub



***Azərbaycan ilə İran arasında nəqliyyat-tranzit sahəsində əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub.***

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, iqtisadiyyat naziri Şahin Mustafayev Bakıda səfərdə olan İranın Yollar və Şəhərsalma nazirinin müavini, İran Dəmir Yollarının prezidenti və idarə heyətinin sədri Səid Rəsulinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə qeyd edilib ki, Azərbaycan-İran iqtisadi əlaqələri inkişaf edir, investisiya və ticarət əməkdaşlığı həyata keçirilir, ölkələrimiz arasında nəqliyyat-tranzit sahəsində əməkdaşlıq genişlənir, Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı istiqamətində önəmli tədbirlər həyata keçirilir.

Səid Rəsuli qarşılıqlı iqtisadi-ticarət əlaqələrinin inkişafında nəqliyyat-tranzit sahəsinin rolunu, bu sahədə mövcud potensialı vurğulayıb.

Görüşdə bu sahədə əməkdaşlığın genişləndirilməsi imkanları müzakirə olunub.

# ASCO-nun gəmiləri “Abşeron” qaz-kondensat yatağında borudüzmə işlərini davam etdirirlər





***Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən “Abşeron” qaz-kondensat yatağında boruların döşənməsi üzrə işlər davam edir.***

Borudüzmə əməliyyatlarına “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin (ASCO) “Aura” yedək-təchizat və “Süleyman Vəzirov” borudüzən gəmiləri cəlb olunub.

Artıq əməliyyatların birinci mərhələsi yekunlaşıb. Belə ki, “Darvin bankası” və “Abşeron bankası” arasında 13299 metrlik boru xətti tam çəkilib.

Hazırda gəmilərlə “Abşeron bankası” – “Qərbi Abşeron” arasında boruların döşənməsi işləri yerinə yetirilir. Bu xəttin uzunluğu 11600 metrdir.

Növbəti mərhələdə isə “Bulla-dəniz” yatağında 2 saylı Qaz Seperator Məntəqəsində borudüzmə işləri görüləcək.

Qeyd edək ki, prosesdə 36 nəfərlik gəmi heyəti, 56 nəfər texniki işçi çalışır.

# Külli miqdarda inşaat materialının ölkəyə qanunsuz yolla gətirilməsi cəhdinin qarşısı alınıb

***Gömrükçülər külli miqdarda inşaat materialları və dekorativ məmulatların gömrük orqanına bəyan olunmadan ölkə ərazisinə gətirilməsi cəhdinin qarşısını alıblar.***




Dövlət Gömrük Komitəsinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən bildirilib ki, bu hüquqpozma faktı Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinin Gömrük Əməliyyatları İdarəsi, Əməliyyat və Təhqiqat şöbəsi və “Hövsan” postunun əməkdaşlarının birgə həyata keçirdiyi malların eyniləşdirilmə tədbiri zamanı qeydə alınıb. Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinin “Hövsan” dəniz limanı postuna İrandan “Nargoon” adlı gəmi ilə “APACHE” MMC-nin gətirdiyi müxtəlif növ qranit daşları, döşəmə və divar üçün keramik plitələr daxil olub. Həmin mallar sərbəst dövriyyə üçün buraxılış gömrük proseduru altında yerləşdirilmək məqsədilə MMC tərəfindən müvafiq gömrük bəyannaməsi ilə Enerji Resursları və Dəniz Nəqliyyatında Baş Gömrük İdarəsinə bəyan edilib. Lakin gömrük yoxlaması zamanı gömrük bəyannaməsində göstərilən mallardan başqa, gömrük orqanına bəyan edilməyən 1980 kvadratmetr qranit daşları, 820 kvadratmetr döşəmə və divar üçün keramik plitələr, həmçinin qranitdən hazırlanmış 3 ədəd dekorativ məmulatlar aşkar olunub. Ümumilikdə isə təqribən 10 min manat dəyərində gömrük ödənişindən yayınma halının qarşısı alınıb.

Aşkar olunan hüquqpozma faktı ilə əlaqədar müvafiq struktur bölmələr tərəfindən araşdırmalar aparılır.

# “Ulu öndər Heydər Əliyev və milli gəmiçilik siyasəti” kitabı nəşr edilib

***Ulu öndər Heydər Əliyev min illərlə tarixi olan müdrik Azərbaycan xalqına məxsus dühadır. O, xalqımızın, dövlətimizin xilaskarı, Yeni Azərbaycanın memarı və qurucusudur.***

Bugün ölkəmizin qüdrətli yüksəlişi, istənilən sahədəki inkişafı Heydər Əliyevin müdrik ideyalarının təntənəsidir. Dahi şəxsiyyət Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə dəniz nəqliyyatı sahəsinə də xüsusi diqqət göstərib. Tam əminliklə deyə bilərik ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin tarixində Ulu öndərin misilsiz rolu və zəhməti olub. Məhz, Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəlməsinin 50 illiyi münasibətilə yazılmış “Ulu öndər Heydər Əliyev və milli gəmiçilik siyasəti” kitabında onun dənizçilik sahəsinə verdiyi töhfədən bəhs edilir.




“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin sifarişi ilə yazılmış kitab bu günlərdə işıq üzü görüb.

Kitabda Ümummilli lider Heydər Əliyevin 1969-cu ilin yayında respublikaya rəhbərlik etdiyi ilk günlərdən ömrünün sonuna qədər gəmiçilik sahəsinə göstərdiyi qayğı və diqqətdən söhbət açılır.

Azərbaycanda gəmiçilik tarixinə qısa səyahət şəklində verilmiş birinci fəsildən sonra Heydər Əliyev erasının – “Yeni eranın başlanğıcı” fəsli gəlir.

“69-cu ilin isti yayı” bölməsində Ulu öndərin ölkəyə rəhbər seçilməsinin tarixçəsindən bəhs olunur, daha sonra respublikada başlayan inkişaf və dəyişikliklərdən danışılır. Maraqlıdır ki, Heydər Əliyev 1969-cu il iyulun 14-də hakimiyyətə gələndən cəmi bir neçə gün sonra – Azərbaycan KP MK-nın iyulun 22-də keçirilən büro iclasının gündəliyinə “Xalq təsərrüfatı yüklərinin daşınmasının yaxşılaşdırılması sahəsində “Xəzər Dəniz Gəmiçiliyi İdarəsinin işi haqqında” məsələ daxil edib. Təkcə bu fakt Ümummilli liderin respublika iqtisadiyyatını dirçəltmək üçün gəmiçiliyə hansı mühüm əhəmiyyət verdiyi barədə aydın təsəvvür yaradır.

Kitabda Heydər Əliyevin hakimiyyəti illərində neft sənayesinin dirçəldilməsi, gəmiçilikdə yerli və milli kadrların irəli çəkilməsi, peşəkarlığın həvəsləndirilməsi, əmək intizamının gücləndirilməsi və s. sahələrdə görülən işlərdən konkret faktlar və arxiv sənədləri əsasında söhbət açılır.

Kitabın “Ulu öndərin fəaliyyətində Moskva vaxtı” adlanan fəslində Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi sovet nəqliyyat sisteminə rəhbərlik etdiyi illərdən bəhs olunur.

Azərbaycanın müstəqilliyini bərpa edəndən sonrakı illərdə Ümummilli liderin milli gəmiçilik sahəsində atdığı mühüm addımlardan, qəbul etdiyi taleyüklü qərarlardan ayrıca fəsildə söhbət açılır.






Kitabın “Gəmiçiliyin inkişafında yeni mərhələ” adlanan sonuncu fəslində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyəti illərində ölkədə milli gəmiçilik sahəsində aparılan struktur dəyişikliklər və qazanılan uğurlar haqqında danışılır.

Kitab Azərbaycan və Rusiyanın arxivlərində saxlanılan çoxsaylı sənədlər, gəmiçilik tarixinə dair kitablar, eləcə də o dövrdə yaşamış adamların xatirələri əsasında qələmə alınıb.

Kitabın müəllifi əməkdar mədəniyyət işçisi Müsəllim Həsənovdur.

# BMT ahılların hüquqlarını qorumağa çağırıb

***Birləşmiş Millətlər Təşkilatı (BMT) ahıl insanların hüquqlarını beynəlxalq qanunvericiliklə qorumağa çağırıb. Təşkilatın saytı xəbər verir ki, BMT-nin bununla bağlı bəyanatında Afrikada və dünyanın başqa qitələrində yerləşən bir sıra ölkələrdə təqaüd yaşına çatmış insanlara yetərincə diqqət göstərilmədiyi qeyd edilir.***



Ahıl insanların, xüsusən qadınların hüquqlarının qorunması məsələsi BMT-nin İnsan Hüquqları Komissiyasında müzakirə olunub. Çıxış edənlər bu kateqoriyadan olan bir çox insanın düşdüyü ağır vəziyyətdən bəhs edib, onların problemlərinin həlli istiqamətində beynəlxalq əməkdaşlıq məsələlərinin ətrafında fikir mübadiləsi aparıblar. BMT-nin insan haqları üzrə Ali komissarı Mişel Baçelet bildirib ki, ahıl insanların iqtisadi inkişafa töhfəsi layiqincə qiymətləndirilməlidir. Onun sözlərinə görə, planetimizdə 60 yaşından yuxarı qadınların dörddəbiri işləməyə məcburdur, onların bir çoxu kənd təsərrüfatı və əməklərinin lazımınca qiymətləndirilmədiyi digər sahələrdə çalışır. Məsələn, Afrika ölkələrində bu yaşda olan qadınların 42 faizi işləməyə məcburdur.

Ali komissar əlavə edib: “Ahıl qadınların bir çoxu ev xidmətçiləri kimi çalışır, onların fəaliyyəti xalq təsərrüfatının bir hissəsi sayılmır, lakin bu əmək növü də vacibdir”. O, xidmət sahələrində işləyən bu insanların hüquqlarını qorumağa çağırıb.

BMT-nin İnsan Hüquqları İdarəsinin hazırladığı hesabata görə, ahıl insanlar daha çox ayrı-seçkiliyə məruz qalırlar, onların hüquqları pozulur, beynəlxalq ictimaiyyət isə bu problemlərə yetərincə diqqət yetirmir. Hesabatda qeyd olunur: “Ahıl insanların sosial həyatda və iqtisadiyyatda iştirakı da problemlidir. Belə ki, cəmiyyətin qocalara münasibəti müsbət deyil”. Müəlliflər bildirirlər ki, bəşəriyyət tarixində ilk dəfə olaraq 65 yaşından yuxarı insanların sayı azyaşlılardan çoxdur, əsrin ortalarında isə bu rəqəmin ikiqat artacağı gözlənilir. BMT-nin insan haqları üzrə Ali komissarının müavini Keyt Gilmor bunu uzunömürlüyün təmin olunması və yoxsulluğun azaldılmasının nəticəsi hesab edir. Onun sözlərinə görə, sosial tədbirlərin və tibbin inkişafı sayəsində insanlar daha sağlam və uzunömürlü olublar, daha yaxşı şəraitdə yaşayırlar. Lakin bu, heç də hamını əhatə etmir.

Dünya Səhiyyə Təşkilatının nümayəndəsi Rudiger Kreç də hesab edir ki, ahıl yaşda olan insanların sağlamlığı cəmiyyətin yükünü azaldır. Sosioloq alimlər və hüquqşünaslar ahıl insanların hüquqları ilə bağlı yeni konvensiyanın işlənib hazırlanmasını təklif edirlər. Bu təklifi BMT-nin İnsan Hüquqları Komissiyasında avstraliyalı alim Endryu Barns səsləndirib. Yeni sənəddə bu qrupa aid insanların, xüsusən təqaüdə çıxmaq imkanı olmayan qadınların əmək və yeni peşə təhsili almaq hüquqlarının təmin olunması öz əksini tapacaq.

# Məcburi köçkün həyatı yaşayan ağdamlılar əmindirlər ki, doğma yurda qovuşacaqlar



***Ağdam rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalından 26 il keçir.***

1993-cü ilin iyun-iyul aylarında Gəncədə və Bakıda baş verən hadisələr ermənilərə Qarabağ cəbhəsində hücum əməliyyatlarını genişləndirmək imkanı verdi. Ağdamın müdafiəsini həyata keçirən yerli özünümüdafiə batalyonları erməni silahlı birləşmələri ilə qanlı döyüşlərə girdi. Ancaq heç bir kömək almayan batalyonların döyüşçüləri iyulun 23-də geri çəkilməyə məcbur oldular. Bununla da 43 gün düşmənə sinə gərmiş Ağdam şəhəri süqut etdi. İşğalçı erməni silahlı birləşmələri evlərə od vurdu, mədəniyyət abidələrini dağıtdı, insanların əmlaklarını qarət etdi, şəhəri tərk edə bilməyən dinc əhaliyə amansız divan tutdu. Ağdam rayonunun 1094 kvadratkilometrlik ərazisinin 882 kvadratkilometri zəbt edildi, 128 min nəfər doğma ev-eşiyindən didərgin düşdü. İşğal nəticəsində 122 kənd, 24 min 446 yaşayış binası, 48 sənaye və tikinti müəssisəsi, 160 məktəb binası, 65 səhiyyə mərkəzi, 373 mədəniyyət ocağı, 1 teatr, 3 məscid və 2 muzey yandırılıb məhv edildi. Erməni terrorçuları Ağdamın işğalı zamanı ağır hərbi cinayətlər törətdilər.

Ağdam Qarabağ müharibəsində ən çox şəhid verən rayondur. Ermənilərlə döyüşlərdə 6 minə yaxın rayon sakini şəhid olub. Onlardan 16-sı Milli Qəhrəmandır. Rayonun 160 min nəfər əhalisindən 128 mini ev-eşiyindən didərgin düşüb. Onlar ölkənin 62 şəhər və rayonunda məskunlaşıblar. İşğal nəticəsində rayona 3 milyard 135 milyon ABŞ dolları məbləğində ziyan dəyib. Ağdamın işğalı ilə güclü iqtisadiyyatı, zəngin mədəni irsi olan bir bölgə itirildi.

Ümummilli lider Heydər Əliyevin səyləri nəticəsində rayonun tamamilə işğalına yol verilmədi. Dağıdılmış kommunikasiyalar bərpa edildi, həyat üçün zəruri şərait yaradıldı. İdarə, müəssisə və təsərrüfatların fəaliyyəti bərpa edildi, iqtisadiyyat dirçəldi, digər yerlərdə məskunlaşmış ağdamlıların rayonla hərtərəfli əlaqəsi sahmana salındı. Ərazisinin üçdə ikisi itirilsə də, Ağdam rayon kimi yaşadı, ağdamlılar isə qurub-yaratmaq ənənələrini davam etdirdilər.

Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev Ağdama göstərilən qayğının hüdudlarını xeyli genişləndirdi. Dövlətimizin başçısının bu rayona hər gəlişi quruculuq işlərinə yeni miqyas və dinamizm gətirdi.

Hazırda rayonun inzibati mərkəzi Quzanlı qəsəbəsində yerləşir. Bu qəsəbənin, eləcə də Ağdamın digər kəndlərinin abadlaşdırılması istiqamətində mühüm işlər görülüb. İqtisadiyyat yüksək inkişaf yoluna çıxarılıb.



Bu gün məcburi köçkün həyatı yaşayan ağdamlıların ən böyük arzusu tezliklə doğma yurda qayıtmaqdır. Hər bir ağdamlı əmindir ki, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə gündən-günə qüdrətlənən ölkəmizin üçrəngli bayrağı Azərbaycan ərazisinin hər yerində dalğalanacaq - işğal altındakı torpaqlarımız azad ediləcək.

# Gələcəyin dənizçiləri "YayFest - gənclər düşərgəsi" layihəsində iştirak ediblər

***Cəmiyyətimizin hər bir təbəqəsi kimi Azərbaycan gəncliyi də daim ölkə rəhbərliyinin qayğısını öz üzərində hiss edir. Həm təhsil, həm də iş fəaliyyətlərində onların yanında olmaqla yanaşı, istirahət vaxtlarının da səmərəli və maraqlı keçməsi dövlətin diqqət mərkəzindədir.***

İyulun 14-dən 18-dək Vətənimizin gözəl guşələrindən biri olan Qusar rayonunda "YayFest - gənclər düşərgəsi" 500-dən çox Azərbaycan gəncinin 5 gün müddətində istirahət etdiyi məkana çevrildi. Statistikaya görə ölkəmizə gələn turistlərin ən çox üz tutduğu məkanlardan sayılan Şahdağ Qış-Yay Turizm Kompleksi bu dəfə öz qapılarını düşərgənin sakinləri üçün açdı.

Düşərgə Azərbaycan Respublikasının Gənclər Fondu, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının və "Cavan" Gənclər Hərəkatı İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilib. AGF-dan verilən məlumata görə, düşərgənin məqsədi gənclərin asudə vaxtlarının səmərəli təşkili, onlar arasında vətənpərvərliyin, təhsilin və sağlam həyat tərzinin təşviqindən ibarət idi.









Azərbaycan Dövlət Dəniz Akademiyasının bir qrup tələbəsi də "YayFest - gənclər düşərgəsi"nə dəvət olunanlar arasında olub.

Düşərgənin ilk günündə Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə gəlişinin 50 illiyi münasibətilə gənclərin təşəbbüsü ilə kütləvi fləşmob keçirilib, Ulu Öndərin Qusar rayonunda ucaldılmış abidəsi ziyarət olunub.

Düşərgənin təşkil olunduğu 5 gündə 7 müxtəlif mövzu üzrə maraqlı panel-təlimlər keçirilib. "Heydər Əliyev və Azərbaycançılıq", "Karyera və şəxsi inkişaf", "Azərbaycan tarixi" və başqa mövzularda keçirilən panellərdə hər bir mövzu üzrə dəvət olunan mütəxəssislər tərəfindən gənclərə geniş məlumat verilib.

Düşərgə iştirakçılarına Dövlət Sərhəd Xidmətinin xüsusi təyinatlı qüvvələri tərəfindən müxtəlif tipli hərbi texnika, helikopter və pilotsuz uçuş aparatlarının döyüş qabiliyyəti, praktiki uçuş imkanları nümayiş etdirilib.

***Musa ƏLİYEV,***
***ADDA-nın ictimaiyyətlə əlaqələr üzrə mütəxəssisi***

# Latviya və Litva dəniz sərhədləri ilə bağlı razılığa gələ bilər

***Latviya prezidenti Eqil Levits ölkəsinin Litva ilə dəniz sərhədləri barədə razılığa gəlməsində maraqlı olduğunu bildirib.***

Bu sözləri prezident keçirdiyi mətbuat konfransında deyib.

Onun sözlərinə görə, bu mövzu uzun müddətdir həllini tapmayıb, halbuki iqtisadi əməkdaşlıq çərçivəsində razılığa gəlmək mümkündür.

Ötən il dəniz sərhədləri barədə iki ölkə arasında razılaşma hazırlanmışdı, lakin Latviya tərəfi sənədi imzalamamışdı. Buna səbəb sərhəd xəttindəki resursların istifadəsində Latviya tərəfinin narazılığı olmuşdu.

***Aygün Əliyeva***



# Bakı Limanından daşınan TIR-ların sayı 57,8 faiz artıb





***Bu ilin yanvar-iyun aylarında Bakı Limanından daşınan TIR-ların sayı 57,8 faiz artıb.***

"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-dən bildirilib ki, 6 ayda Ələt qəsəbəsindəki yeni Bakı Limanında ümumi yük, vaqon, TIR və konteyner aşırmaları, eyni zamanda, sərnişin daşınması üzrə müsbət göstəricilər qeydə alınıb. Uğurlu yarım ili şərtləndirən amillər sırasında "Bir kəmər, bir yol" və Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə Azərbaycandan keçən yük həcminin çoxalması, eyni zamanda, Mərkəzi Asiyadan kimyəvi məhsulların (karbamid, polipropilen, polietilen və sair) ixracının, Qara Dəniz və Avropa ölkələrindən Mərkəzi Asiya istiqamətinə daşınan sənaye və qida məhsullarının artması olub.

Əsas artım irihəcmli nəqliyyat vasitələrinin (TIR-ların) daşınmasında qeydə alınıb. Belə ki, TIR-ların sayı keçən ilin müvafiq dövrünə nisbətən 57,8 faiz artaraq 15 min 9 ədəd olub. Bunlardan 11 min 372-si (75,8 faizi) Bakı-Türkmənbaşı-Bakı, 3637-si isə (24,2 faizi) Bakı-Kurık-Bakı istiqamətində daşınıb.

# Qaçqınları daşıyan qayıq batıb

***Türkiyənin Muğla şəhərinin Bodrum rayonunun Ayvalık sahilləri yaxınlığında qaçqınları daşıyan qayıq batıb.***

Türkiyənin sahil mühafizə gəmiləri qayıqdakı doqquz nəfərdən səkkizini xilas edib. İtkin düşən bir nəfərin axtarışı davam edir.

Bundan əlavə bölgədə qayıqla ölkəni tərk etmək istəyən daha 11 nəfər saxlanılıb.

***Günel Məlikova***



# "Karahasan-2" gəmisində güclü yanğın baş verib

***Türkiyədə Çanaqqala-Eceabad xətti ilə hərəkət edən gəmidə güclü yanğın baş verib.***

Yanğın sərnişin və minik maşınları daşıyan "Karahasan-2" adlı gəminin mühərrik hissəsində baş verib. Hadisə limana yaxın yerdə baş verdiyi üçün göyərtədəki 98 sərnişini və heyət üzvlərini təxliyə etməkdə böyük çətinlik olmayıb. Gəminin limana yaxın ərazidə saya oturduğu bildirilir.

***Sabir Şahtaxtı***




# Türkiyə ərazisini qanunsuz yollarla tərk etmək istəyən 48 nəfər saxlanılıb

***Türkiyənin Aydın şəhərinin Kuşadası rayonlarında ölkə ərazisini qanunsuz yollarla tərk etmək istəyən 48 nəfər saxlanılıb.***



Türkiyənin sahil təhlükəsizlik xidmətinin əməkdaşları tərəfindən saxlanılanların rezin qayıq vasitəsilə ölkəni tərk etmək istədikləri məlum olub.

Aralarında uşaq və qadınların da olduğu köçkünlər həkim müayinəsindən keçirildikdən sonra aidiyyəti qurumlara təhvil veriliblər.

# TAP-ın inşası üzrə Albaniya sularında dəniz borularının tikintisi artıq başa çatıb

***Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan "Trans-Adriatik" (TAP) boru kəmərinin inşası çərçivəsində İtaliyada boruların tikintisinə başlanılıb.***

Bu barədə AZƏRTAC-a eksklüziv açıqlamasında boru kəmərinin operatoru olan TAP AG şirkətinin kommunikasiya rəhbəri Lisa Givert deyib.

"İtaliyada, Melendugno şəhərindəki 1,5 kilometrlik mikrotunelin inşası aprelin sonunda turist fəaliyyətləri və sahilboyu ətraf mühitə heç bir təsir və ya müdaxilə olmadan tamamlanıb. Boru kəmərinin İtaliya hissəsinin və qəbul terminalının tikintisinin tamamlanması üzrə işlər davam edir. Hazırda qəbul terminalının inşasının 32 faizi yekunlaşıb. Həmçinin TAP-ın İtaliyadan keçəcək təxminən 8 kilometrlik hissəsində boruların 3 kilometri xəndəyə endirilib", - deyə L.Givert bildirib.

O əlavə edib ki, iyunun sonuna TAP layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla 88,5 faizi icra edilib. Bundan başqa, TAP-ın quru hissəsinin inşası çərçivəsində Yunanıstan, Albaniya və İtaliya marşrutunda boruların 99 faizi torpağa basdırılıb. Həmçinin 3 ölkə üzrə marşrutun 95 faizindən çoxunda torpaq örtüyü bərpa edilib.



Qeyd edək ki, TAP-ın inşası üzrə hər gün yüzlərlə metr ərazi təmizlənir, borular marşrut xətti boyunca düzülür, qaynaqlanır, xəndəyə endirilir və torpaq örtüyü bərpa olunur. Bundan başqa, TAP konsorsiumu təbii qaz tədarükçülərinin maraqlarını ifadə etməyə imkan verəcək bazar sınaqlarına da başlayıb. Məqsəd sonrakı mərhələdə TAP-ın genişləndirilməsi imkanlarını araşdırmaqdır.

TAP-ın inşası üzrə Albaniya sularında dəniz borularının tikintisi artıq başa çatıb. Boru kəmərinin dəniz hissəsi Albaniya və İtaliya sahillərini bir-birinə birləşdirəcək və uzunluğu 105 kilometr olacaq. Adriatik dənizində boruların 37 kilometri Albaniya, 25 kilometri İtaliya, 43 kilometri isə beynəlxalq sularda döşənəcək. Boru kəməri dənizin 810 metrdən də çox dərinlikdəki hissəsindən keçəcək, 36 düymlük xəttin inşasında ümumilikdə 100 min ton ağırlığında təxminən 9 min boru istifadə olunacaq. "Saipem" dənizdəki tikinti işləri üçün təqribən 10 gəmidən istifadə edəcək.

Boru kəmərinin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olan ilkin layihəsi üzrə biri Kipoidə (Yunanıstan), digəri isə Fierdə (Albaniya) olmaqla ümumilikdə 2 kompressor stansiyasının inşasına 2017-ci ilin birinci yarısında başlanılıb və işlər qrafik üzrə davam etdirilir. Kompressor stansiyaları ilə yanaşı, həmçinin Albaniyanın şərqində Bilisht regionunun yaxınlığında ölçmə stansiyasının tikintisi də aparılır. Kompressor və ölçmə stansiyalarının tikintisi təxminən 2 il müddətində başa çatdırılacaq. Bundan sonra isə ilkin istismara hazırlıq və tam istismara verilmə üzrə yoxlamalar keçiriləcək. Təxminən 6 ay müddətində aparılacaq bu əhatəli yoxlamalar yeni qurğuların tam işlək, eləcə də təbii qazın nəqli üçün təhlükəsiz və hazır olub-olmadığını göstərəcək. Lazımi turbo kompressorlar isə "Siemens" şirkəti tərəfindən istehsal olunub.

Xatırladaq ki, layihə üzrə kapital xərcləri 4,5 milyard avrodur. Boru kəməri Avropanın üç ölkəsinin ərazisindən – Yunanıstan, Albaniya və İtaliyadan keçir. TAP-ın ilkin ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr olacaq və bu həcmin gələcəkdə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından hasil olunacaq qazı Türkiyəyə və bu ölkədən də Avropaya daşıyacaq 3 min 500 kilometr uzunluğundakı Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP Cənubi Qafqaz Boru Kəməri və TANAP-ın davamı olub, "Şahdəniz-2"dən hasil olunacaq qazı Yunanıstan və Albaniya vasitəsilə, Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya çatdıracaq. Boru kəmərinin uzunluğu 878 kilometr, diametri isə 48 düymdür. TAP boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçir. TAP-la Avropaya ilk qazın verilməsi 2020-ci ilə planlaşdırılır.

Boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Kəmər buradan Yunanıstan və Albaniya ərazisini qət edərək şərqdən qərbə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. TAP "Snam Rete Gas" şirkətinin istismar etdiyi İtaliyanın qaz nəqliyyatı şəbəkəsinə birləşəcək. Layihə Azərbaycan qazının İtaliya, Almaniya, Fransa, Böyük Britaniya, İsveçrə və Avstriya kimi böyük Avropa bazarlarına çatdırılması üçün böyük imkanlar yaradır.

TAP-ın səhmdarları belədir: BP (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagás" (16 faiz) və "Axpo" (5 faiz).

# Yoxa çıxanda "Minevre" sualtı qayığın göyərtəsində 52 dənizçi olub



***Fransa Müdafiə Nazirliyinin təşkil etdiyi axtarış qrupu 51 il əvvəl yoxa çıxmış fransız sualtı qayığını tapıb.***

BBC telekanalının saytı xəbər verir ki, bu məlumatı Fransanın Müdafiə naziri Florens Parli özünün Twitter səhifəsində yayıb. O, hərbi sualtı qayığın tapıldığı yerin relyefini və texniki xarakteristikasını da paylaşıb.

Qeyd olunub ki, 1968-ci ilin yanvarında Fransanın cənubundakı Tulon limanının yaxınlığında yoxa çıxan "Minevre" adlanan bu sualtı qayığın göyərtəsində 52 dənizçi olub. Onun axtarışı uzun illər davam edib, lakin heç bir nəticə verməyib. Bu ilin əvvəlində xanım Parli sualtı qayığın axtarışının yenidən başlanacağı barədə bəyanat verib və itkin düşmüş dənizçilərin ailələrini də bu prosesdə iştirak etməyə dəvət edib. O, iyulun 22-də özünün Twitter səhifəsində yazıb: "Biz indicə "Minevre"nin tapılması xəbərini aldıq. Bu, böyük uğurdur. Düşünürəm ki, bu, itkin düşmüş dənizçilərin uzun illərdir yaxınlarını gözləyən ailələri üçün də mühüm xəbərdir".

Nazirin məlumatına görə, axtarış qrupu yeni texnologiyaların köməyi ilə sualtı qayığın qəzaya uğradığı yerin ətrafındakı əraziləri təhlil edib. ABŞ-ın "Ocean Discovery" şirkətinə məxsus olan sualtı gəminin köməyi ilə axtarışlara başlanılıb. Yoxa çıxmış sualtı qayıq Tulon limanından 45 kilometr aralıda 2,370 metr məsafədə aşkar olunub.

# "Caspian Engineering Technology United Limited" şirkəti təqdimat keçirib






***"Caspian Engineering Technology United Limited" şirkəti (CET) "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) üçün tərəfdaşlarına məxsus məhsulların təqdimatını keçirib.***

Təqdimatda bildirilib ki, "Caspian Engineering Technology United Limited" şirkəti müxtəlif mühəndislik xidmətləri təklif edir. Bura ehtiyat hissələrinin təchizatı, elektrik və enerji avadanlıqları xidmətləri, yeni sənaye mühəndisliyi və təkmilləşdirmə layihələri daxildir. Bununla belə, şirkət geniş təcrübəyə malik idarə heyətinə, mühəndis və satış üzrə mütəxəssislərə malikdir.

Sonra "IMPRO", "DETEGASA", "WE Tech", "Thordon" şirkətinin Azərbaycandakı nümayəndələri çıxış ediblər. Onlar öz təqdimatlarında dəniz platformaları və gəmilər üçün müxtəlif avadanlıqların istehsalı ilə məşğul olduqlarını, geniş profilli mühəndislik xidmətləri təklif etdiklərini bildiriblər.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Dəniz nəqliyyatı ilə 405 milyon dollarlıq yük daşınıb

***Yanvar-iyun aylarında dəniz nəqliyyatı ilə ümumilikdə 665 min 509 ton yük daşınıb ki, bu yüklərin dəyəri 404 milyon 983 min ABŞ dollarıdır.***

Dövlət Gömrük Komitəsindən verilən məlumata görə, 6 ayda dəniz nəqliyyatı ilə ixrac olunan 184 min 555 ton yükün dəyəri 83 milyon 674 min dollar təşkil edib. Bu nəqliyyat növü ilə idxal edilən yüklərin həcmi 480 min 953 ton, dəyəri isə 321 milyon 309 min dollar olub.



# Dəhlizlə daşınmış yüklərin 3 milyon 404,9 min tonunu tranzit yüklər təşkil edib

***Yanvar-may aylarında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində daşınmış yüklərin həcmi 20 milyon 959,2 min ton, yük dövriyyəsi isə 4 milyard 442,4 milyon ton-kilometr olub.***



Dövlət Statistika Komitəsindən bildirilib ki, yüklərin 13 milyon 596,5 min tonu və ya 64,9 faizi avtomobil nəqliyyatı, 5 milyon 243,2 min tonu və ya 25 faizi dəmir yolu nəqliyyatı, 2 milyon 119,5 min tonu və ya 10,1 faizi dəniz nəqliyyatı ilə daşınıb.

Dəhliz vasitəsilə daşınmış yüklərin 16,2 faizini və ya 3 milyon 404,9 min tonunu tranzit yüklər təşkil edib.

# Xəzər Dəniz Neft Donanmasının bir qrup dənizçisinə mükafatlar təqdim olunub

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) Xəzər Dəniz Neft Donanmasında növbədən qayıdan bir qrup dənizçiyə mükafatlar təqdim olunub.***

Mükafatçılar arasında "Gəmiçilik sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalına, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin Fəxri fərmanına layiq görülənlərlə yanaşı, 2018-ci ilin "Ən yaxşı mexanik" və "Ən yaxşı matros"u da olub.

Mükafatları Xəzər Dəniz Neft Donanmasının rəisi Taqət Qurbanov təqdim edib. O, dənizçiləri təbrik edərək gələcək işlərində uğurlar arzulayıb.

Dənizçilər əməklərinə verilən yüksək qiymətə görə təşəkkürünü bildirib, onlara bəslənən etimadı bundan sonra da layiqincə doğruldacaqlarına söz veriblər.






# Azərbaycanla Əfqanıstanın nəqliyyat və İKT sahəsində əməkdaşlığına dair müzakirələr aparılıb

***İyulun 16-da Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə ölkəmizdə səfərdə olan Əfqanıstan İslam Respublikasının Maliyyə naziri, Prezidentin Baş Müşaviri Məhəmməd Humayun Qayuminlə görüşüb.***

Nazirlikdən bildirilib ki, görüşdə iki ölkə arasında nəqliyyat, tranzit, eyni zamanda, informasiya və kommunikasiya texnologiyaları sahələrində əməkdaşlığın inkişaf etdirilməsi müzakirə olunub. Həmçinin qeyd olunan istiqamətlərdə birgə layihələrin icrası ilə bağlı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, əfqanıstanlı nazir Azərbaycan Respublikası Hökuməti ilə Əfqanıstan İslam Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə İşçi Qrupunun ilk iclasında iştirak etmək məqsədilə Bakıya səfər edib.



# BMT-nin Baş katibi: "Dənizin səviyyəsi sadəcə qalxmır, o, getdikcə sürətlə qalxır"

***"İqlim dəyişmələrinə qarşı mübarizədə zaman bizi qabaqlayır. Biz üç çox ciddi antirekordun şahidləri olmuşuq. Əvvələn, istixana qazlarının konsentrasiyası son 3-5 milyon il ərzində ən yüksək səviyyəyə çatıb. İkincisi, Dünya Meteorologiya Təşkilatının məlumatına görə, 2015-2019-cu illər meteomüşahidələr tarixində ən isti illər olub. Avropada və Cənubi Asiyada rekord dərəcədə isti havalar bunu bir daha xatırladır. Üçüncüsü, dənizin səviyyəsi sadəcə qalxmır, o, getdikcə sürətlə qalxır". BMT-nin Baş katibi Antonio Quterreş bu sözləri yüksək səviyyəli siyasi forumun "nazirlər seqmenti"nin açılışında söyləyib. Baş katib daha sonra deyib ki, iqlim dəyişmələrinin nəticələrini, ilk növbədə, əhalinin ən yoxsul və müdafiəsiz təbəqələri hiss edir.***



BMT Xəbərlər Mərkəzi bildirir ki, BMT rəhbərinin sözlərinə görə, beynəlxalq birlik Davamlı İnkişaf Hədəflərinin reallaşdırılması üçün hələ çox iş görməlidir. Quterreş dörd ən mühüm vəzifəni vurğulayıb: davamlı inkişaf üçün özəl və dövlət investisiyaları artırılmalıdır; iqlim dəyişmələrinə qarşı mübarizə qeyri-bərabərliyin azaldılmasına kömək etməlidir; beynəlxalq birlik Miqrasiya haqqında Qlobal Müqavilənin müddəalarını yerinə yetirməlidir; davamlı inkişaf insan haqlarına riayət edilməsi ilə ayrılmaz surətdə bağlı olmalıdır.

Sentyabr ayında BMT Baş Assambleyasının növbəti sessiyasında iqlim dəyişmələri və Davamlı İnkişafın Hədəfləri mövzularına həsr edilmiş sammitlər və digər mühüm görüşlər keçiriləcəyini xatırladan A.Quterreş ölkələrin hökumətlərini Nyu-Yorka "gəlişigözəl nitqlər" söyləməyə yox, konkret fəaliyyət planları ilə gəlməyə çağırıb.

# Ölkəmizdə iqtisadi fəal əhalinin sayı 5 milyon 167 min nəfərdən çoxdur

***Bu il iyulun 1-nə olan məlumata əsasən, ölkəmizdə iqtisadi fəal əhalinin sayı 5 milyon 167 min nəfərdən çox olub, onlardan 4 milyon 915 min nəfərdən çoxunu məşğul əhali təşkil edib.***

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bu il iyunun 1-i vəziyyətinə muzdla işləyənlərin sayı 1 milyon 590 min 700 nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 898 min, qeyri-dövlət sektorunda isə 692 min 700 nəfər təşkil edib. Neft-qaz sektorunda çalışanların sayı 35 min, qeyri neft-qaz sektorunda çalışanların sayı isə 1 milyon 555 min 700 nəfər olub.



Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 23,4 faizi məhsul istehsalında, o cümlədən 7,2 faizi tikintidə, 7,2 faizi emal, 3,1 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 2,2 faizi mədənçıxarma, 1,9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,8 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olub.

Xidmət sahəsində işləyənlərin 21 faizi təhsil, 18,4 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 8,4 faizi səhiyyə və sosial xidmətlər, 6,9 faizi dövlət idarəetməsi və müdafiə, sosial təminat, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,5 faizi inzibati və yardımçı xidmətlər, 3,5 faizi istirahət, əyləncə və incəsənət, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 1,7 faizi informasiya və rabitə, 1,6 faizi maliyyə və sığorta fəaliyyəti, 1,6 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi və 1 faizi daşınmaz əmlakla əlaqədar əməliyyat sahələrində çalışıblar.

Bu il iyulun 1-nə olan məlumata görə, məşğulluq xidməti orqanlarında 55,8 min nəfər işsiz qeydiyyata alınıb, onların 34,6 faizini qadınlar təşkil edib. İşsizlikdən sığorta ödənişinin orta məbləği 221,2 manat olub.

# Qaçqın mərkəzlərinin bir hissəsinin bağlanması zərurəti yaranıb

***İsveçrə Dövlət Miqrasiya Xidməti qaçqınlarla bağlı vəziyyətin "optimallaşdırılması" üçün iyulun əvvəlindən etibarən sığınacaqların bağlanması da daxil olmaqla bir çox imkanları nəzərdən keçirir.***

İsveçrədə sığınacaq axtaranların sayının azalması öz nəticəsini verib və hazırda qaçqınların yerləşdirildiyi bir neçə mərkəzin bağlanması da gündəmə gəlib. Ədliyyə naziri Karin Keller-Sutter sistemin imkanlarının tənzimlənməli olub-olmadığını yoxlamağa başlayıb. O, növbəti addımlara sentyabr ayında qərar verəcək.



Dövlət Miqrasiya Xidməti qəzetlərin bu barədə xəbərini təsdiq edib. Xidmətin mətbuat katibi Lukas Rider adıçəkilən sahədə yarımçıq işlərin tamamlanmasının sürətləndirilməsi üçün tədbirlərin nəzərdən keçirildiyini bildirib. Bununla yanaşı, yol xəritəsinin daha səmərəli şəkildə həyata keçirilməsi üçün imkanlar və təhsil mərkəzlərində yüklənmənin öhdəsindən gəlmə yolları da müzakirə olunur.

Hazırda federal dövlətin mövcud mərkəzlərində və müvəqqəti yaşayış məntəqələrində 4 min yatacaq yeri var. İyunun sonunda bu yerlərdən ən azı yarısı dolu olub. Buna baxmayaraq, dövlətin bu günədək qüvvədə olan planlarına əsasən yatacaq yerlərinin sayını 5 minə çatdırmaq nəzərdə tutulurdu. Keçən il əksər kantonlarda qaçqınların sayı azaldığından mərkəzlər bağlanmışdı. Bu gün federal dövlətin bir neçəsi müvəqqəti olmaqla 19 sığınacağı var. Sığınacaqların sayı və orada yerləşdirilmiş qaçqın sayındakı mütənasibliyin pozulması qaçqın mərkəzlərinin bir hissəsinin bağlanması zərurətini yaradıb.

Qeyd edək ki, İsveçrədə qaçqın böhranının ən pik nöqtəsi 2015-ci ildə yaşanıb. 2014-cü ildə sığınacaq üçün müraciət edənlərin sayı 15 min nəfər olsa da, 2015-ci ildə bu say 40 min nəfərə yüksəlib. Bu ilin ötən 6 ayı ərzində isə müraciət edənlərin sayı cəmi altı min nəfər olub.

***Elgün Niftəli***

# Rəqəmsal gələcəyi təmin edən ölkələr

***İnternetin sürəti hansı ölkələrdə daha üstündür? Şirkətləri onlayn rejimində harada tez bir vaxtda qeydiyyatdan keçirmək və yerli mobil nömrə əldə etmək olar? Hansı ölkədə evdən çıxmadan və ya kafedə masanın arxasında oturub bizneslə məşğul olmaq mümkündür? BBC telekanalının saytı xəbər verir ki, bütün bu rəqəmsal imkanların yüksək səviyyədə olduğu ölkələrin adları InterNations birliyinin "Digital Life Abroad" ("Xaricdə rəqəmsal həyat") adlı hesabatında yer alıb.***

Hesabatda qeyd olunur ki, kommunikasiya imkanları dünya ölkələrinin mədəniyyətinə təsir edərək onları dəyişdirir. Bir çox ölkələrdə rəqəmsal element gündəlik həyat tərzinə çevrilib. Bəzi ölkələr isə bu sahədə daha böyük uğurlar əldə edib.

Tədqiqatlar nəticəsində hazırlanmış dünya reytinq cədvəlində birinci yeri Estoniya tutur. Tallin bu yerə "internetə sərbəst giriş" və "onlayn dövlət xidmətləri"nin yüksək səviyyəsi nəticəsində layiq görülüb. Qeyd olunur ki, Estoniyada son illər rəqəmsal infrastruktura böyük məbləğdə sərmayələr yatırılıb. Hökumətin sponsoru olduğu "e-Estoniya" proqramı onlayn rejimində səsvermədə iştirak etməyə, bank və səhiyyə xidmətlərindən istifadəyə, hətta virtual vətəndaşlıq almağa və şirkətləri qeydiyyatdan keçirməyə imkan verir. Bütün bu texnoloji yeniliklər ölkə iqtisadiyyatına xeyli gəlir gətirir. Avropa İttifaqı ölkələrinin biznesmenləri də Tallində şirkət açaraq bu üstünlüklərdən faydalanırlar. Bundan başqa, kiberhücumların qarşısının alınması, bank və digər şəxsi hesabların mühafizəsi sahəsində də Estoniya ən etibarlı ölkə sayılır. Hətta NATO özünün kiberhücumlara qarşı Ekspert Mərkəzini Tallində açmağa qərar verib.

Bu göstəricilərə görə reytinq cədvəlində ikinci yeri Finlandiya tutur. Bu ölkədə ən sürətli onlayn şirkət açma prosedurası və nağdsız ödənişlər sistemi mövcuddur. Helsinki dünyada ilk dəfə hər bir vətəndaşın genişzolaqlı internetdən istifadə hüququnu təsbit edən qanun layihəsini qəbul edib. Finlərin yüksək səviyyədə informasiyaya çıxış, onlayn rejimdə dövlət xidmətlərindən istifadə etmək, bir çox xidmətləri avtomatik olaraq digər ölkələrə köçürmək üzrə imkanları əcnəbi iş adamlarını da cəlb edir. Bundan başqa, Finlandiyada rəqəmsal infrastruktur təhsil sistemində daha çox yer alıb. Nəhəng rəqəmsal imkanların olduğu Helsinki kitabxanasında dünya ədəbiyyatının nümunələri, elm və texnikanın bütün nailiyyətləri ilə tanış olmaq, eyni zamanda idmanla məşğul olaraq istirahət etmək də mümkündür.

Məhdudiyyətsiz internet şəbəkəsinin və asan əldə edilən mobil nömrələrin olduğu İsrail reytinq cədvəlində üçüncü yerdədir. Bu ölkəni innovasiya texnologiyalarının güclü mərkəzi də adlandırmaq olar. Yəhudilər ölkələrinin "Startup Nation" ("Startaplar dövləti") kimi təqdim olunmasından çox məmnundurlar. İsrail informasiya texnologiyaları sahəsində mütəxəssislər üçün ən münbit 10 ölkə sırasındadır. Bu ölkənin daha bir xüsusiyyəti internet xidmətlərinin daha ucuz və etibarlı olmasıdır. Startapların əksəriyyəti isə biznes üçün geniş imkanların yaradıldığı Tel-Əviv şəhərinə axışır.

Yuxarıda göstərilən rəqəmsal uğurları əldə edən daha bir ölkə - Kanada reytinq cədvəlində dördüncü yeri tutur. Lakin bu ölkə dünyada internet xidmətlərinin ən bahalı olduğu dövlətlər sırasındadır. Toronto şəhəri Kanadanın rəqəmsal texnologiya mərkəzi hesab olunur.

Reytinq cədvəlində beşinci yeri Cənubi Koreya tutur. Lakin bu ölkədə bir sıra onlayn xidmətlərin və mobil əlavələrin səviyyəsi o qədər də yüksək sayılmır. Eyni zamanda, şəxsi məlumatların və hesabların oğurlanması halları da tez-tez baş verir. Cənubi Koreyanı bu göstəricilər üzrə ən etibarsız ölkələrdən biri hesab edən və Android sistemini tənqid edən Bloomberq Law portalı biznesmenlərə Amerikanın Amazon və ya PayPal mobil əlavələrindən istifadə etməyi məsləhət görüb.

# Nüvə sınaqlarından 60 il sonra adalarda radiasiya səviyyəsinin yüksək olduğu müəyyən edilib

***Sakit okeanın şimalında 5 ada və 1152 çox kiçik torpaq parçasından ibarət olan Marşall adalarında radiasiyanın səviyyəsi Çernobıl və Fukusimadan yüksəkdir. CNN telekanalı xəbər verir ki, bunun səbəbi ABŞ-ın "soyuq müharibə" dövründə bu torpaqlarda çoxlu atom bombası sınaqları keçirməsidir. Belə ki, 1946-1958-ci illərdə Birləşmiş Ştatlar bu kiçik adalarda 67 nüvə sınağı keçirib. Tədqiqatlar göstərib ki, yüksək radiasiya insanların bir çoxunda xərçəng və digər xəstəliklərə səbəb olub.***

Nüvə sınaqlarından 60 il sonra Kolumbiya Universitetinin alimləri bu adalardan dördündə radiasiya səviyyəsinin yüksək olduğunu müəyyən ediblər. Onlar qeyd ediblər ki, hazırda bəzi yerlərdə şüalanma 1986-cı ildə baş vermiş Çernobıl fəlakəti və 2011-ci ildə zəlzələ və sunami nəticəsində meydana çıxmış Fukusima atom elektrik stansiyasında olduğundan 1 min dəfə artıqdır. Torpaq nümunələrinin analizini aparan tədqiqatçılar bu ərazidə amerisium, sezium, plutonium kimi təhlükəli elementlərin səviyyəsinin həddindən artıq yüksək olduğunu bildiriblər.



2018-ci il iyulun 1-dək olan məlumata görə, Marşall adalarının əhalisi cəmi 75 min nəfərdir. Burada ən az radiasiyaya məruz qalmış və yaşamaq üçün əlverişli olan ərazi cəmi 700 insanın məskunlaşdığı Yenevtak adasıdır.

# “Dövlət idarəçiliyində blockchain texnologiyasının tətbiqi” mövzusunda keçirilən müsabiqədə ASCO-nun əməkdaşı I yer tutub

***Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təşkilatçılığı ilə Elektron Hökumət üzrə İcra Qrupunun ikinci görüşü keçirilib.***



55 müxtəlif qurumun nümayəndəsinin iştirak etdiyi tədbir dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, idarə olunması və qarşılıqlı inteqrasiyasının təmin edilməsi sahəsində vahid yanaşmanın və standartların tətbiqi, rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi və effektiv əlaqələndirmənin təmini məqsədilə təşkil olunub. Müxtəlif panellər üzrə keçirilən tədbirdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-ni (ASCO) İnformasiya texnologiyaları departamentinin əməkdaşı Nicat Kərimov təmsil edib.

Tədbirdə “Dövlət idarəçiliyində blockchain texnologiyasının tətbiqi” mövzusunda hakaton təşkil olunub. Dövlət qurumlarının nümayəndələrindən formalaşdırılmış 6 komanda 3 saat ərzində müxtəlif sahələrdə blockchain texnologiyasının tətbiqi üzrə təkliflər formalaşdırıb.

ASCO, ADY, AZAL və Bakı limanının təmsilçilərindən ibarət komanda "Yükdaşımalar sahəsində blockhain texnologiyasının tətbiqi" mövzusunda təqdimatla çıxış edib. Komanda üzvləri, o cümlədən ASCO-nun əməkdaşı Nicat Kərimov müsabiqədə I yeri tutub.




Sonda iştirakçılar arasında ünsiyyət və komanda ruhunun yaradılması məqsədilə sərbəst vaxt təşkil edilib.

# Xəzər dənizi regionunda birgə tədqiqatlar aparılacaq

***Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin (RSXM) baş direktoru, AMEA-nın müxbir üzvü, professor Qurban Yetirmişli Rusiya Federasiyası Təhsil və Elm Nazirliyinin Serqo Orjonikidze adına Rusiya Dövlət Geolojikəşfiyyat Universitetinin təşkilatçılığı ilə Moskvada “Xəzər regionunun mineral xammal bazası” mövzusunda keçirilən müzakirələrdə iştirak edib.***

Mərkəzin informasiya şöbəsindən bildiriblər ki, səfər çərçivəsində RSXM-in baş direktoru ikitərəfli əməkdaşlığın inkişafına dair bir sıra ikitərəfli görüşlər də keçirib. Həmçinin, Serqo Orjonikidze adına Rusiya Dövlət Geolojikəşfiyyat Universiteti ilə AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi arasında “Elmi - texniki əməkdaşlıq” haqqında Razılaşma sənədi imzalanıb. Sənədi universitetin rektoru Vadim Kosyanov və mərkəzin baş direktoru Qurban Yetirmişli imzalayıblar. Razılaşmada ikitərəfli əməkdaşlıq çərçivəsində əlaqələrin genişləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin həyata keçirilməsi, Xəzər dənizi hövzəsi ilə bağlı birgə elmi tədqiqatların aparılması, ekoloji risklərin öyrənilməsi nəzərdə tutulur.

# Hörmüz boğazında gəmiçiliyin hərəkətinin təmin edilməsi həyati əhəmiyyətə malikdir

***Yaponiya Nazirlər Kabineti baş katibinin müavini Kotaro Noqami qeyd edib ki, Tokio Yaxın Şərqdə gərginliyin azaldılması və vəziyyətin sabitləşməsi üçün ABŞ və digər ölkələrlə birlikdə diplomatik səyləri davam etdirəcək.***



Bu barədə K.Noqami iyulun 10-da jurnalistlərlə söhbəti zamanı bildirib. K.Noqami ABŞ-ın Hörmüz boğazında təhlükəsizliyi təmin etmək məqsədilə müttəfiqləri ilə birlikdə koalisiya yaratmaq niyyəti barədə kütləvi informasiya vasitələrinin yaydıqları məlumatı şərh etmək niyyətində olmadığını da deyib. Onun sözlərinə görə, boğazda gəmiçiliyin hərəkətinin təmin edilməsi Yaponiyanın enerji təhlükəsizliyi üçün həyati əhəmiyyətə malikdir və bu, beynəlxalq ictimaiyyətin sülh və inkişaf niyyətinə bərabərdir.

Yaponiya özünümüdafiə qüvvələrinin ABŞ-ın yaratmaq istədiyi koalisiyaya qoşulacağı barədə sualı cavablandıran baş katibin müavini bildirib ki, iki ölkə İran ilə bağlı vəziyyəti sıx müzakirə edirlər. K. Noqami məsələnin detallarını şərh etməyib.

***Vüqar Ağayev***

# 28 yaşlı "Ən yaxşı mexanik"

***Peşəkarlıq vacib tələbdir. Amma hər hansı sahədə yüksək pillələri fəth etmək üçün təkcə peşəkar olmaq kifayət etmir. Başqa məqamlar da var. Bunlardan biri də tərbiyədir.***



Hikmət Şabanov indiyədək çalışdığı gəmilərdə işə yanaşması ilə bərabər, tərbiyəsi ilə də seçilib. Bu xüsusiyyəti ona gənc yaşında uğur gətirməklə yanaşı, kollektivdə böyük hörmət qazandırıb.

**Qısa arayış:** Hikmət Şabanovun 28 yaşı var, Zaqatala rayonunda doğulub. 2008-ci ildə Azərbaycan Dövlət Dəniz Akademiyasının “Gəmi mexanikası və elektromexanikası” fakültəsinə daxil olub, “Gəmi energetik qurğuları və onların istismarı mühəndisliyi” ixtisasına yiyələnib. Artıq altı ildir ki, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyində çalışır. Fəaliyyətinə motorçu kimi başlayan Hikmət qısa müddətdə mexanik vəzifəsinədək yüksəlməyi bacarıb. Hazırda ASCO-nun xarici sularda üzən “Üzeyir Hacıbəyli” quru yük gəmisində ikinci mexanik işləyir.

*28 yaşlı ikinci mexanikin dediklərindən:*

**“ATAMIN UŞAQLIQ ARZUSU**

Atamda dənizçi peşəsinə həmişə böyük maraq və sevgi olub. Hətta uşaqlıqda dənizçi olmaq istəyib, amma babam icazə verməyib. Çox istəyirdi ki, oğlanlarından biri bu peşəyə yiyələnsin. Məndən əvvəl böyük qardaşım Qüdrət Şabanov artıq onu arzusuna çatdırmışdı. Mən də qardaşıma baxıb həvəsləndim və ixtisas seçimi zamanı Azərbaycan Dövlət Dəniz Akademiyasını ilk sırada yazdım.

**MƏNİM DƏNİZ SEVGİM**

Tez-tez məndən soruşurlar ki, dənizdən qorxmursan? Etiraf edim ki, ilk vaxtlar belə anlarım olurdu. Əsasən də küləkli havalarda bir qədər qorxurdum. Amma yavaş-yavaş öyrəşdim. İndi nəinki qorxmuram, əskinə dənizi və onun hər cür hava şəraitini sevirəm. Dəniz insanı mübariz olmağa sövq edir, istər-istəməz adamı cəsarətləndirir, möhkəm olursan, daha tez və ağıllı qərar verməyi bacarırsan. O, sənə həm də fədakarlığı və başqalarının həyatını düşünməyi öyrədir.

**QARA DƏNİZ XƏYALIM**

Akademiyada oxuduğumuz müddətdə bizim xarici sularda gəmimiz yox idi. Amma gənc dənizçi kimi Qara dənizdə üzməyi çox istəyirdim, hətta bunun xəyalını qururdum. “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC yarandıqdan sonra 2014-cü ildə Qara və Aralıq dənizi hövzəsində fəaliyyət də bərpa edildi. Bu, bizi çox sevindirdi. İndi beynəlxalq sularda 14 gəmimiz var. Onlardan 12-si quru yük, ikisi tankerdir. Fəxr edirəm ki, onların birində - “Üzeyir Hacıbəyli” gəmisində işləyirəm. Heyətimiz hamısı azərbaycanlıdır. Çox mehribanıq, bir-birimizə dəstək olur və kömək edirik.

**MƏNİM MƏSULİYYƏTİM**

Xarici sularda fəaliyyət göstərən dənizçilərin yükü ikiqat ağırdır. Biz həm də ölkəmizin beynəlxalq sularda, limanlarda təmsilçiləriyik. Gəmilərimizdə üçrəngli bayrağımızı dalğalandırırıq. Ona görə, daha məsuliyyətli olmalıyıq. Çalışırıq ki, həm peşəkarlığımızla, həm də mədəniyyətimizlə əcnəbilərin yaddaşında yaxşı imic formalaşdıraq. Tam əminliklə deyə bilərəm ki, biz bunu heyət olaraq bacarırıq.

**DƏNİZLƏRDƏN-DƏNİZLƏRƏ, LİMANLAR-DAN-LİMANLARA**

“Üzeyir Hacıbəyli” gəmisi 2014-cü ildən Qara və Aralıq dənizi hövzəsində istismar edilir. Quru yük gəmisidir. Yükümüz müxtəlif olur: dənli bitkilər, metal və s. İndiyədək 20-dən çox ölkədə olmuşam. Bunlara misal olaraq İtaliya, Rusiya, Xorvatiya, Misir, İsrail, Türkiyəni göstərə bilərəm. Bu ölkələrin limanları ilə yanaşı, müxtəlif yerlərini gəzmək imkanım da olub. Yükdən və limanın iş saatından asılı olaraq biz kapitandan icazə alaraq şəhərə də çıxırıq. Hər səfər bir ayrı maraqlı olur.

**İLİN “ƏN YAXŞI MEXANİK”İ**

ASCO-da gənclərə hər zaman dəstək göstərilir. Bu diqqətə, işimizə verilən qiymətə görə ASCO-nun sədri Rauf Vəliyevə təşəkkür edirəm. Bu il mən Dəniz Nəqliyyatı Donanması üzrə 2018-ci ilin “Ən yaxşı mexanik”i adına layiq görülmüşəm. Etimadı doğrultmaq üçün əlimdən gələni bundan sonra da edəcəyəm. İnsan işini sevməli və ona həvəslə yanaşmalıdır. Bundan sonra uğur qazanmaq asan olacaq. Mən buna əminəm. Təsərrüfatçı ailəsində doğulmuşam, zəhmətin nə olduğunu yaxşı bilirəm. Zamanı boşa keçirmək olmaz, hər fürsətdə nəsə öyrənməli və tətbiq etməliyik.”

***Rövşən ABDURƏHMANOV***

# İri infrastruktur layihələrin 2022-ci ildə başa çatdırılması nəzərdə tutulur

***Şərq-Qərb avtomagistralı Avropa və Asiyanın birləşdirilməsi üçün mühüm layihədir. Gürcüstan bu yolun tikintisinə böyük həcmdə vəsait ayırıb.***

Bu sözləri Gürcüstanın Regional İnkişaf və İnfrastruktur naziri Maya Tskitişvili iyulun 12-də Batumidə keçirilən “Şərq tərəfdaşlığı”nın 10 illiyinə həsr olunan beynəlxalq konfransdakı çıxışında deyib.

Nazirin sözlərinə görə, Gürcüstanda iri infrastruktur layihələrin 2022-ci ildə başa çatdırılması nəzərdə tutulur. Bu layihələr başa çatdıqdan sonra Gürcüstan-Azərbaycan sərhədindən Gürcüstan-Türkiyə sərhədinədək olan avtomobil yolunu 2 dəfə daha az vaxta qət etmək mümkün olacaq.

“Gürcüstanda, həmçinin yük və sərnişin daşımaları üçün əsas vasitə olan dəmir yollarının modernləşdirilməsi də davam etdirilir”, – deyə o vurğulayıb.

***Xətayi Əzizov***

# İran gəmisinin batmasına ilkin səbəb kimi ağır yük və fırtınalı hava şəraiti göstərilir

***İyulun 26-da saat 14:15-də Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Baş Komanda-Nəzarət Mərkəzinə İran İslam Respublikasının bayrağı altında üzən “Şəbahəng” quru-yük gəmisinin Lənkəran reydində sahildən 15 mil məsafədə batmaq təhlükəsi ilə üzləşməsi barədə məlumat daxil olub.***










DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, cənub istiqamətində dövlət sərhədinin mühafizəsini həyata keçirən “Tufan” tipli sərhəd gözətçi gəmisi dərhal hadisə yerinə göndərilib. Sərhəd gözətçi gəmisi hadisə yerinə çataraq xilasetmə əməliyyatına başlayıb, batan gəminin 9 nəfərdən ibarət olan ekipajı tam heyətlə xilas edilib.

Sərhəd gözətçi gəmisinin komandiri, üçüncü dərəcəli kapitan Nəhmət Quliyevin sözlərinə görə, gəminin batmasına ilkin səbəb kimi ağır yük və fırtınalı hava şəraiti göstərilir. Heyət üzvləri havanın bir anda stabilləşməsindən istifadə edərək çox qısa vaxt ərzində xilasetmə əməliyyatını uğurla həyata keçiriblər.

Qeyd edək ki, heyət üzvlərindən 7 nəfəri İran, ikisi isə Hindistan vətəndaşıdır. Heyət xilas edildikdən sonra saat 16:22-də gəmi batıb.

# ƏDV bəyannamələrini vergi orqanları dolduracaq

***Vergilər Nazirliyi "Kiçik sahibkarlıq subyektlərinin ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması" qaydalarını və bununla bağlı bildiriş formasını təsdiq edib.***


Əlavə Dəyər Vergisinin bəyannaməsi
Bəyannamə təqdim edildiyi vergi orqanının adı
Bölmə 1. Vergi ödəyicisi haqqında ümumi məlumat
1 VÖEN
2 Vergi ödəyicisinin tam adı
Telefon nömrəsi (rayon, şəhər, şəhər rayonu)
Telefon nömrəsi (mobil)
3 Verginin ödəyicisinin qrupu (müvafiq xanadan birində X göstərin)
3-1 Verginin ödəyicisinin fəaliyyət sahəsinə görə qrupu (müvafiq xanadan birində X göstərin)

Nazirliyin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, qaydalar Vergi Məcəlləsinə və digər normativ-hüquqi aktlara uyğun hazırlanıb və Vergilər Nazirliyinin elektron informasiya sisteminə real vaxt rejimində qoşulan nəzarət-kassa aparatı tətbiq etməklə fəaliyyət göstərən kiçik sahibkarlıq subyektlərinin ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması xidməti ilə bağlı məsələləri tənzimləyir.

"ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması" xidməti dedikdə, həmin bəyannamələrin Vergilər Nazirliyinin uçot-baza məlumatları əsasında vergi orqanları tərəfindən hazırlanması nəzərdə tutulur. Bu xidmətdən yalnız Vergilər Nazirliyinin elektron informasiya sisteminə real vaxt rejimində qoşulan, nəzarət-kassa aparatından istifadə edən kiçik sahibkarlıq subyektləri faydalana biləcəklər. Kiçik sahibkarlıq subyektləri Nazirlər Kabinetinin 2018-ci il 21 dekabr tarixli Qərarı ilə təsdiq edilmiş "Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü Meyarları"na əsasən müəyyən ediləcək.

ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması xidməti yalnız vergi orqanı ilə elektron sənəd mübadiləsi haqqında müqavilə bağlayan, eləcə də bəyannamə və hesabatları elektron formada təqdim edən vergiödəyiciləri üçün nəzərdə tutulub. Yeni qaydalar sahibkarların ƏDV bəyannamələrinin tərtibi ilə bağlı maliyyə sanksiyalarına məruz qalma risklərini, bəyannamənin tərtibatına sərf edilən vaxtlarını və inzibati xərclərini minimallaşdırmaq məqsədi daşıyır. ƏDV bəyannaməsinin əvvəlcədən doldurulması zamanı bir sıra informasiya sistemlərindən, o cümlədən dövlət reyestri, Vergilər Nazirliyinin elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş nəzarət-kassa aparatı, elektron qaimə-faktura, elektron vergi hesab-fakturası, yük gömrük bəyannaməsi, notarius, ƏDV depozit hesabı və əmək müqavilələri bildirişləri üzrə informasiya sisteminin məlumatlarından istifadə olunacaq.

Qaydalara əsasən, vergiödəyicisi bu xidmətdən istifadə üçün ərizə ilə müraciət etdikdə, vergi orqanı 5 iş günü ərzində ona ƏDV bəyannamələrinin əvvəlcədən doldurulması xidmətinə qoşulması barədə bildiriş göndərməlidir. Yeni xidmətdən istifadə hüququ əldə edən vergiödəyicisinin ƏDV bəyannaməsi hesabat ayı başa çatdıqdan sonra 5 iş günü ərzində müvafiq vergi orqanı tərəfindən elektron formada hazırlanaraq vergiödəyicisinə təqdim olunacaq. Zərurət yarandığı təqdirdə, vergiödəyicisi göndərilmiş bəyannamədə müvafiq dəqiqləşdirmələr apara bilər. Ancaq bunu ƏDV bəyannaməsinin təqdim olunması müddəti başa çatanadək etməli və bəyannaməni təsdiqləməlidir. ƏDV bəyannaməsinin təqdim edilməsi müddəti başa çatanadək vergiödəyicisi tərəfindən təsdiqlənmədiyi təqdirdə, bəyannamə artıq təsdiqlənmiş hesab olunur və bu barədə ona müvafiq bildiriş göndərilir.

Vergi orqanı tərəfindən ƏDV bəyannaməsi əvvəlcədən hazırlanaraq vergiödəyicisinə göndərildikdə vergiödəyicisi tərəfindən ƏDV bəyannaməsində göstərilən məlumatların Vergi Məcəlləsinin 85.5-ci maddəsi ilə müəyyən edilmiş 3 il müddətindən çox olmamaqla dəqiqləşdirilməsi hüququ vardır. Bununla yanaşı, vergiödəyicisi ƏDV bəyannaməsinin əvvəlcədən doldurulması xidmətindən imtina edə bilər.

Vergilər nazirinin 2019-cu il 30 yanvar tarixli əmrinə əsasən, vergi bəyannamələrinin əvvəlcədən doldurulması sisteminin tətbiqi ilə bağlı mövcud məlumat imkanlarının araşdırılması, ƏDV qeydiyyatına düşmə ehtimalı olan vergiödəyicilərinin müəyyənləşdirilməsi mexanizmlərinin hazırlanması və onların məlumatlandırılması ilə bağlı tədbirlərin görülməsi nəzərdə tutulub. Qaydaların təsdiq edilməsindən sonra bu işlər sürətləndirilib.

# Dəniz sahilinin hasarlama və ya digər üsullarla bağlanılması yolverilməzdir

***Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən Xəzər dənizinin 20-50 metrlik sahilboyu torpaqlarının mühafizəsi ilə bağlı nəzarət daha da gücləndirilir. Bununla əlaqədar, Xəzər dənizinin Bakı şəhərinin Qaradağ, Xəzər, Suraxanı, Binəqədi rayonları, eləcə də Sumqayıt şəhərinin ərazisində olan zonalarında monitorinq qrupları yaradılıb.***




Komitədən bildirilib ki, aparılan monitorinq zamanı Xəzər dənizinin sahilboyu mühafizə zolağı torpaqlarından qanunsuz istifadə halları aşkarlanır. Xəzər dənizinin mühafizə zolağına aid ərazilərini qeyri-qanuni istifadə edən torpaq mülkiyyətçiləri barədə İnzibati Xətalar Məcəlləsinin 248-ci maddəsinə əsasən inzibati protokollar tərtib edilir.

Hazırkı dövrədək İnzibati Xətalar Məcəlləsinə əsasən təqsirkar şəxslər barədə 80 halla bağlı protokol tətbiq edilib, torpaq sahəsinin zəbtolunması ilə bağlı Cinayət Məcəlləsinin 188-ci maddəsinin əsasən 76 hal barəsində Daxili İşlər Nazirliyinə müraciətlər göndərilib, 39 işlə bağlı məhkəmələrdə iddia qaldırılıb.

Qanunla 20-50 metr zolaqda hər hansı tikintinin aparılması üçün xüsusi razılıq olmalıdır. Dəniz sahilinin hasarlama və ya digər üsullarla bağlanılması yolverilməzdir. Hasarlama işləri yalnız qəfəsli olmaqla uzunluğu 200 metrdən çox olmamalı və hər 200 metrdən sonra dəniz sahilinə 6 metr enində gediş-gəliş yolu saxlanılmalıdır.

Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu 20-50 metrlik zolağına aid olan torpaq sahələri ilə bağlı tələblərin pozulmasına görə fiziki, vəzifəli və hüquqi şəxslər müvafiq olaraq 4 min manat, 8 min manat və 40 min manat cərimələnir. Həmçinin Cinayət Məcəlləsində Xəzər dənizinin sahilboyu 20-50 metrlik zolağının altında olan torpaqlara münasibətdə vəzifəli şəxsləri 7 ildən 10 ilədək müddətə azadlıqdan məhrumetmə nəzərdə tutulub.

Bu hallar torpaq qanunvericiliyinin ciddi şəkildə pozulmasına səbəb olmaqla yanaşı, vətəndaşların Xəzər sahilində istirahət hüququnu da məhdudlaşdırır, bəzən tamamilə mümkünsüz edir. Eyni zamanda, sahilboyu ərazilərin qanunsuz olaraq hasarlanması həmin yerin panoramik görünüşünü pozur. Bu isə turizm baxımından mənfi fəsadlara gətirib çıxarır.

Xəzər dənizinin sahilboyu torpaqlarının mühafizəsi ilə bağlı monitorinqlər davam etdiriləcək. Əmlak Məsələləri Dövlət Komitəsi vətəndaşları torpaq istifadəçiliyi ilə bağlı qanunvericiliyin tələblərinə əməl etməyə çağırır.

# "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda istehsalat təcrübəsi tələbələrin ürəyincədir

***Azərbaycan Dövlət Dəniz Akademiyasının (ADDA) "Gəmi energetik qurğularının istismarı və onların mühəndisliyi" ixtisasının birinci kurs tələbələri ASCO-nun "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda istehsalat təcrübəsindədirlər.***










Zavodun strukturu və fəaliyyəti barədə ətraflı məlumatlandırılan tələbələr, əsas və köməkçi sexlərlə də yaxından tanış olublar. Təcrübə müddətində həmçinin, peşəkar təmirçilərdən gəmi dizel mühərriklərinin təmir texnologiyasının sirlərini öyrənəcəklər. Bununla belə, tələbələr təmir edilən mühərriklərin sınağını da nəzərdən keçirmək imkanı qazanacaqlar.

Zavoddakı təcrübə müddəti başa çatdıqdan sonra tələbələr bir aylıq fasilə edərək təcrübənin ikinci hissəsinə başlayacaqlar. Bu mərhələ gəmidə davam edəcək. Burada tələbələr gəmidəki qurğu və mexanizmlərlə yaxından tanış ola biləcəklər. Gənc dənizçilər hər bir gəminin aparıcı hissəsi sayılan maşın şöbəsindəki baş və köməkçi mühərriklərin istismarı, onlara göstərilən texniki xidmət prosesini izləyəcəklər. Təhlükəsizlik texnikası tədbirləri və növbə mexanikinin gördüyü işlərlə tanışlıq təcrübəçi tələbələr üçün mühazirə və məşğələlər zamanı aldıqları nəzəri biliklərinin tamamlanmasına geniş imkan yaradacaq.

# 65 miqrantı xilas edən "Sea Watch-3" gəmisi İtaliya sahillərində veriləcək qərarı gözləyir

***Finlandiya hökuməti İtaliya sahillərindəki gəmidə olan və sığınacaq istəyən bir neçə nəfəri qəbul etmək barədə qərarı təsdiqləyib.***




Finlandiya KİV-ləri xəbər verir ki, bu barədə təklif daha əvvəl ölkə hökuməti tərəfindən bəyan edilib.

Miqrantların olduğu "Sea Watch-3" xilasetmə gəmisi "Sea-Watch International" qeyri-hökumət təşkilatına məxsusdur və artıq bir neçə həftədir ki, İtaliya sahillərində yerləşir. İtaliya, öz növbəsində, miqrantları ölkəyə buraxmaqdan imtina edir. Gəmi Liviya sahillərində 65 miqrantı xilas edib.

Baş verən vəziyyətin həll olunması üçün bir neçə ölkənin hökuməti, o cümlədən Finlandiya gəmidəki miqrantların bir hissəsini qəbul etməyə hazır olduqlarını bildiriblər. Beləliklə, Finlandiya hökuməti maksimum 8 nəfərdən ibarət miqrant qrupuna sığınacaq vermək barədə qərar qəbul edib.

Qeyd edək ki, Almaniyanın "Sea Watch" qeyri-hökumət təşkilatının gəmisi göyərtəsində onlarca miqrantla bir neçə həftə ərzində dənizdə olub.

***Rauf Əliyev***

# Avropaya getmək istəyən qaçqınlardan 681 nəfər dənizdə batıb



***Birləşmiş Millətlər Təşkilatının (BMT) Miqrasiya Agentliyinin məlumatına görə, 2019-cu ilin əvvəlindən Avropa ölkələrinə 29,844 qeyri-leqal miqrant və qaçqın gəlib.***

Təşkilatın saytı xəbər verir ki, bu il Avropaya yollanan qaçqınlardan 681 nəfər dənizdə batıb. Ötən ilin müvafiq dövründə Avropa ölkələrinə gələn qaçqınların və qeyri-leqal miqrantların sayı 46,411 nəfər olub, 1,414 qaçqın isə Aralıq dənizində boğularaq həyatını itirib.

Beynəlxalq Miqrasiya Təşkilatının (IOM) məlumatında qeyd olunur ki, bu il təkcə Yunanıstana 13,997 qeyri-leqal miqrant və qaçqın gəlib ki, bu da Avropaya gələnlərin ümumi sayının yarısını təşkil edir. Təşkilatın İspaniyadakı nümayəndəsi Ana Dodevskanın sözlərinə görə, qaçqın və qeyri-leqal miqrantların üçdəbiri – 10,538 nəfər İspaniyaya gəlib. Bu ölkəyə gündəlik 58 nəfər daxil olub. Ümumilikdə, Yunanıstan və İspaniya bu insanların 82 faizini qəbul edib.

IOM-un İtaliya üzrə nümayəndəsi Flavio Di Giakomonun sözlərinə görə, bu il İtaliya 2,790 miqrant və qaçqını qəbul edib. 2018-ci ilin müvafiq dövründə isə bu ölkəyə gələnlərin sayı 16,709 olub.

BMT-nin Miqrasiya Agentliyinin hesabatında bildirilir ki, 2014-cü ildən 2018-ci ilədək Avropaya yollanan miqrantların 30,510 nəfəri həlak olub.

# 1,3 milyard insan yoxsulluq həddindən aşağı şəraitdə yaşayır

***BMT İnkişaf Proqramının (BMT İP) son hesabatında qeyd olunur ki, dünyada 1,3 milyard insan yoxsulluq həddindən aşağı şəraitdə yaşayır. Təşkilatın saytı xəbər verir ki, bu sənəd ekspertlərin 101 ölkədə, o cümlədən 31 azgəlirli, 68 ortagəlirli və 2 inkişaf etmiş ölkədə apardıqları tədqiqatların nəticəsində hazırlanıb. Onlar şəraiti bir neçə göstərici – gəlirlər, sağlamlıq, iş şəraiti və zorakılıq təhlükəsi amilləri əsasında öyrəniblər.***



Müəlliflər tədqiqata bu cür yanaşmanı "çoxaspektli" adlandırıblar və buna müvafiq olaraq "çoxaspektli indeks" tərtib ediblər. Hesabata görə, ən dəhşətli şərait Böyük Səhradan aşağıda yerləşən Afrika və Cənubi Asiya ölkələrindədir. Bu dövlətlərdə ifrat yoxsulluq indeksi 84,5 faizdir. Avropa və Mərkəzi Asiya ölkələrində isə bu göstərici 1,1 faizə bərabərdir. Regionların daxilində yüksək fərqlər mövcuddur: məsələn, Cənubi Afrikada əhalinin 6,3 faizi, Cənubi Sudanda isə 91,9 faizi yoxsulluq həddindən aşağı şəraitdə yaşayır. Cənubi Asiyada da oxşar mənzərədir: Maldivlərdə bu rəqəm 0,8 faizdirsə, Əfqanıstanda 56 faizə çatır. Avropa və Mərkəzi Asiya ölkələrində ən yoxsul ölkə 7,4 faizlə Tacikistandır.

Tədqiqatın aparıldığı bir çox ölkələrdə də bölgələr arasında ciddi fərqlər mövcuddur. Məsələn, Uqandanın Kampala əyalətində yoxsulluq indeksi 6 faiz, Karamodcada isə 93,3 faizdir.

Hesabat müəllifləri bildirirlər ki, ifrat yoxsulluqdan ən çox uşaqlar əziyyət çəkirlər. Yoxsulluq həddindən aşağı şəraitdə yaşayan 1,3 milyard insanın 663 milyonu azyaşlılardır. Onların da əksəriyyəti Afrika və Cənubi Asiya ölkələrində yaşayır. Burkina-Faso, Çad, Efiopiya, Niger və Cənubi Sudanda 10 yaşına qədər uşaqların 90 faizi "çoxaspektli indeks" kateqoriyasına aid edilib.

BMT İP-nin ekspertləri əhalisi iki milyard nəfərə çatan 10 ölkənin timsalında 2030-cu ilədək təşkilatın əsas hədəflərindən biri olan yoxsulluqla mübarizənin dinamikasını araşdırıblar. Bu tədqiqatın nəticəsi nikbinlik doğurur. Belə ki, siyahıda yer almış bütün ölkələr, o cümlədən Hindistan, Kamboca və Banqladeş yoxsulluqla mübarizə sahəsində uğurlar əldə ediblər. Lakin ekspertlər xəbərdarlıq edirlər ki, yoxsulluğun aradan qaldırılması üçün təkcə qeyri-bərabərlik indeksini deyil, habelə digər mühüm statistik göstəriciləri araşdırmaq lazımdır.

# İçərisində miqrantların olduğu kiçik qayıq saxlanılıb

***Son günlər İtaliyanın Lampeduza adasına gələn miqrantların sayı artıb.***



İyulun 9-da sahildən təxminən bir mil aralıda içərisində miqrantların olduğu kiçik qayıq saxlanılıb. Qayıqdakı 19 miqrantın hamısı Tunis vətəndaşlarıdır. Onlar adadakı miqrant qəbulu mərkəzinə göndərilib. Daha 10 miqrant isə iyulun 8-də saxlanılıb.

Qeyd edək ki, bir müddət əvvəl Almaniyanın "Alan Kurdi" xilasedici gəmisi ilə Maltaya gətirilən 65 miqrant Aİ-nin müxtəlif ölkələrinə paylanılacaq.

# Ən çox səfər edilən beş turizm istiqamətindən üçü Avropada yerləşir

***Şəhərlərin qədim mərkəzi və tarixi məhəllələri ilə hərəkət edən insan kütləri, şəhərlərin əsas hərəkət yollarında tıxac yaradan səyahət avtobusları, bələdiyyələrə gecələmə üçün rüsum ödəməyən, lakin ətraf mühitə ağır zərbə vuran okean laynerləri, turistlərlə dolu dəniz çimərlikləri və tarixi abidələr qarşısında gözləmə sıraları hər ilin yay aylarında turizm mövsümünün tanış mənzərələridir. Kütləvi turist səfərləri ətraf mühitə böyük zərbə olsa da, dünya üzrə turistlərin sayı ildən ilə artmaqdadır.***




2017-ci ildə dünyada azı 1,4 milyard insan turist kimi səyahətə çıxıb. Ümumdünya Turizm Təşkilatının (UNTWO) verdiyi məlumata görə, bu göstərici 2016-cı illə müqayisədə altı faiz artım deməkdir. Buraya həm fərdi, həm biznes səfərləri, eləcə də bir şəxsin il ərzində keçirdiyi bütün səfərlər daxildir.

Dünyanın ən çox səfər edilən beş turizm istiqamətindən üçü Avropada yerləşir. 90 milyon turistlə Fransa bu siyahıya başçılıq edir, sonrakı yerlərdə İspaniya (82 milyon), ABŞ (77 milyon), Çin (61 milyon) və İtaliya (58 milyon) gəlir. Araşdırmalara görə, turistlər son dövrlərdə indiyədək maraqlı olmayan istiqamətləri də kəşf etməkdədirlər. Belə ki, Yaxın Şərq, Şimali Afrika və Cənubi Saxara regionları yeni trendlər sırasındadır.

Beynəlxalq qurumun məlumatına görə, 1970-ci ildə beynəlxalq turistlərin sayı 166 milyon nəfər idisə, 2017-ci ildə təkcə Çindən xaricə səfər edən turistlərin sayı 143 milyon nəfər olub. Sonrakı yerdə 92 milyonla almanlar, 88 milyonla amerikanlar dayanır.

Turistlərlə yüklənmə hazırda bir çox şəhər və regionlarda ciddi problemə çevrilib. Barselonadan Venesiyaya kimi bir çox şəhərlər həddən ziyadə turizmə (overtourism) qarşı müxtəlif tədbirlər görür, əlavə vergi, məhdudiyyət və tarixi ərazilərə girişi qadağan etməklə turist axınını nizamlamağa çalışır. Turistlərin çoxluğu şəhərlərdə kirayə qiymətlərinin qalxması, mərkəzi küçələrdə sıxlıq və səs-küy, həmçinin yerli sakinləri narahat edir. Qlobal mobilliyin getdikcə artması, rəqəmsal xidmətlər və rəqabətin xüsusilə endirimli təkliflərə yol açması turist axınının gələcəkdə də davam edəcəyinə dəlalət edir.

***Elgün Niftəli***

# Gəminin kapitanı və heyəti "qeyri-leqal miqrasiya"ya yardım iddiası ilə istintaqa cəlb edilib

***İtaliyanın miqrantları xilasetmə üzrə qeyri-hökumət təşkilatına məxsus "Aleks" gəmisi müsadirə edilib.***



ANSA agentliyi xəbər verir ki, "Aleks" dənizdə 41 miqrantı xilas etdikdən Lampeduza adasına yan almaq üçün zorla limana daxil olub.

İtaliyanın Daxili İşlər Nazirliyinin məlumatına görə, sığınacaq axtaran şəxslərə gəmini tərk etməyə icazə verildiyi halda, gəminin kapitanı və heyəti "qeyri-leqal miqrasiya"ya yardım iddiası ilə istintaqa cəlb edilib.

***Asiman Əsədov***

# Sərnişinlərin yola sərf etdiyi vaxtı qısaltmaq istəyirlər



***Danimarkanın Nəqliyyat naziri Benni Engelbrext bildirib ki, Krallıqda beş ən iri şəhər arasında yola sərnişinlərin sərf etdiyi vaxtı qısaltmaq istəyirlər.***

Danimarka KİV-ləri bildirir ki, bu plan həyata keçirilsə, onda Olborq və Orxus, Orxus və Odense, Odense və Esbyerq, Odense və Kopenhagen şəhərləri arasında dəmir yolu daşımalarının müddəti bir saatdan çox olmayacaq.

Yola sərf olunan vaxtın qısaldılması və dəmir yolu şəbəkəsinin təkmilləşdirilməsi istiqamətində addımlar üzrə plan ilk dəfə 2014-cü ildə təqdim edilib. Lakin parlamentdə dəstəklənmədiyinə görə onun reallaşdırılması dayandırılıb. Ötən ay keçirilən ümumi seçkilərdən sonra hökumətin dəyişməsi nəticəsində bu istiqamətdə işlər yenidən başlayır.

Nəqliyyat naziri Benni Engelbrext artıq bildirib ki, bu planı müzakirə etmək üçün onun ilkin variantını dəstəkləyən partiyalarla görüşəcək.

***Rauf Əliyev***

# Aclıq və səfalətdən, silahlı münaqişələrdən əziyyət çəkənlərin xoş rəftara ehtiyacı var

***Birləşmiş Millətlər Təşkilatının (BMT) insan hüquqları üzrə Ali komissarı Mişel Baçelet ABŞ-ın sərhəd nəzarəti və təhlükəsizlik xidməti əməkdaşlarının Meksika ilə sərhəddə qeyri-leqal miqrantlarla rəftarını tənqid edib.***



BMT-nin saytı xəbər verir ki, M.Baçelet uşaqların saxlanılmasının və valideynlərindən ayrılmasının yolverilməz olduğunu bəyan edib. O deyib: "Pediatr, ana və sabiq dövlət başçısı kimi uşaqların döşəmədə yatması, onların tibbi yardımdan məhrum olması, qidalanmaması, sanitar normalara əməl edilməməsi məni çox narahat edir".

Ali komissar ABŞ-ın Daxili Təhlükəsizlik Nazirliyinin ölkənin cənub sərhədində vəziyyətlə bağlı hesabatına istinad edib. O vurğulayıb ki, azyaşlıların saxlanılması qəddar və qeyri-insani hərəkət kimi qiymətləndirilməlidir. "Hətta yaxşı şəraitdə və qısa müddətə saxlanıldığında belə, uşaqlara qarşı bu rəftar onların səhhətinə və inkişafına mənfi təsir edə bilər", -deyə Baçelet qeyd edib. O, ABŞ-ın hakimiyyət orqanlarını qeyri-leqal miqrasiya probleminin həlli üzrə alternativ yollar tapmağa, uşaqları və böyükləri mühafizə altında saxlamaqdan imtina etməyə çağırıb. Ali komissar əlavə edib ki, hər bir dövlətin ölkəyə giriş-çıxışları ciddi nəzarət altına götürmək səlahiyyəti var, lakin sərhədlərin mühafizəsi tədbirləri insan hüquqlarının qorunması öhdəliklərinə əngəl olmamalıdır. O xatırladıb ki, ölkələrini tərk edən bu insanların çoxu aclıq və səfalətdən, silahlı münaqişələrdən qurtulmaq istəyənlərdir, onların xoş rəftara ehtiyacı var.

M.Baçelet ABŞ hökumətini bu məsələdə miqrantların gəldiyi ölkələrin rəhbərlikləri ilə konstruktiv əməkdaşlığa dəvət edib. Onun sözlərinə görə, miqrasiya probleminin həllinin yeganə yolu yoxsulluğun, zorakılığın, ayrı-seçkiliyin və iqlim dəyişikliklərinin mənfi təzahürlərinin aradan qaldırılmasıdır.

# Köhnə katamaranın beş dəfədən artıq yüklənməsi faciə ilə nəticələnib

***Qara dənizdə batan və iki nəfərin öldüyü rus katamaranının göyərtəsində 55 sərnişin olub.***



TASS informasiya agentliyinin verdiyi xəbərə görə, Krasnodar vilayətinin Tuapse rayonunun başçısı Anatoli Rusin onların arasında 15 azyaşlının olduğunu bildirib. Onun sözlərinə görə, iyulun 5-də axşam saatlarında Cuqba qəsəbəsi yaxınlığına batan katamaran cəmi 12 nəfərlik olduğu halda, ona 55 sərnişin minib. Digər tərəfdən, bu su nəqliyyat vasitəsi istismar müddətini də başa vurub.

Rayon rəhbəri əlavə edib ki, köhnə katamaranın beş dəfədən artıq yüklənməsi nəticəsində faciə baş verib. İnsident çimərlik ərazisində baş verməyib və hazırda dənizdə istifadə olunan digər su nəqliyyat vasitələrinin yoxlanılmasına başlanılıb.

Qəzada həyatını itirən iki qadının ailəsinə maddi yardım göstərilib. İnsidentlə bağlı cinayət işi açılıb, katamaranın sahibi və kapitanı həbs edilib.

# Qayığın heyət üzvləri balıqçı gəmisi tərəfindən xilas edilib

***Vyetnama məxsus balıqçı gəmisi Cənubi-Çin dənizində, Nanşa adası yaxınlığında kəskin hava şəraiti səbəbindən qəzaya uğrayaraq batan Çinə məxsus balıqçı qayığının 32 heyət üzvünü xilas edib.***



Çinin Mərkəzi Televiziyası xəbər verir ki, Haynan əyalətinin Syunhay qəzasında qeydiyyata alınan balıqçı qayığı yerli vaxtla saat 06:00-da (Bakı vaxtı ilə 02:00) həyəcan siqnalı verib və bundan sonra onunla əlaqə kəsilib. İnsidentdən dərhal sonra miqyaslı xilasetmə əməliyyatı başlayıb. Əməliyyata hərbçilər, kommersiya gəmiləri və aviasiya da cəlb edilib.

Sonradan məlum olub ki, qayığın heyət üzvləri Vyetnama məxsus balıqçı gəmisi tərəfindən xilas edilib. Hadisə nəticəsində ölənlər və xəsarət alanlar barədə məlumat verilmir.

Çinin "COSCO Shipping" konteyner operatorunun "Yuanyanhu" adlı kommersiya gəmisi xilas edilən dənizçiləri sahilə çıxarmaq üçün qəzanın baş verdiyi rayona gəlib.

# İqlim dəyişmələri ilə mübarizədə səmərəli üsul

***Qırılan meşələrin böyük hissəsini bərpa etməklə, orta illik temperaturun və atmosferdə karbon qazının həcminin bundan sonrakı artım sürətini dərhal azaltmaq və hətta dayandırmaq mümkün ola bilər. Bu meşələr insan fəaliyyəti nəticəsində yaranan istixana qazlarının üçdəbirini udmağa qadir olacaq.***

RİA Novosti xəbər verir ki, alimlər bu barədə "Science" jurnalında yazırlar.

"Hamıya məlumdur ki, meşələrin bərpası bizə qlobal istiləşmə ilə mübarizədə yardımçı ola bilər, lakin bu vaxta qədər heç kim onların fəaliyyət gücünü dəqiq qiymətləndirə bilməyib. Hesablamalarımız göstərir ki, bu, iqlim dəyişmələri ilə mübarizədə hələ ki, ən yaxşı üsuldur. Biz indi hərəkətə keçsək, o zaman atmosferdə karbon qazının payını dörddəbirədək aşağı salmağa nail ola bilərik", - deyə Sürixdəki İsveçrə Ali Politexnik Məktəbindən Tom Krauter bildirir.



Meşələrin sanksiyalaşdırılmış və qeyri-qanuni yolla qırılması bu gün Yer kürəsinin ekologiyası və iqlimi üçün başlıca problemlərdən biri kimi qalmaqdadır. NASA-nın dəyərləndirməsinə görə, meşələrin qırılması son 10 il ərzində 62 faiz artaraq rekord göstəriciyə çatıb.

Peyk ölçülərinə müvafiq olaraq, hər il Yer kürəsi Seylon adasının sahəsi ekvivalentində nəhəng meşə massivlərindən məhrum olur. Meşələrin qırılmasının böyük hissəsi tropiklərin payına düşür. Planetimizin səthi üç trilyona yaxın ağacı saxlayır.

İqlimşünasların müşahidələri göstərir ki, meşələrin qırılması təkcə böyük miqdarda karbon qazı uducularının məhvinə deyil, həm də ekologiya sistemi və iqlimin fəaliyyətində digər çoxsaylı dəyişikliklərə gətirib çıxara bilər. Ağaclar torpağın səthini sərinləşdirməklə, küləyin hərəkətini tənzimləməklə, suyun həddən artıq buxarlanmasına mane olmaqla, atmosferi sərinləşdirən, Günəşin istiliyini və işığını əks etdirərək kosmosa qaytaran aerozol mənbəyi rolunu oynayır.

Krauter və onun həmkarları meşələrin təbiətdə karbon qazı cərəyanına necə güclü təsir etməsi və meşələrin əvvəlki sahələrinin bərpasının iqlimə və istixana qazları tullantılarına necə təsir göstərməsi üzərində düşünüblər.

BMT-nin cari dəyərləndirmələrinə görə, Yer kürəsində meşələrin ümumi sahəsi hazırda 5,5 milyard hektar təşkil edir. Bununla yanaşı, bu sahənin yarısı ağac çətirlərinin payına düşür. Krauterin və onun həmkarlarının fikrincə, hər iki göstəricini insan həyatına və Yer kürəsinin iqtisadiyyatına heç bir xələl gətirmədən, qırılan meşələrin bir hissəsini bərpa etmək yolu ilə təqribən üçdəbirədək çox asanlıqla qaldırmaq mümkündür.

## "Sualtı mədəni irs sahəsində ən yaxşı nümunə"

***Sloveniyada Lyublyanitsa çayının zəngin sualtı irsinin muzey ekspozisiyasında nümayişi layihəsi böyük uğur əldə edib. Layihə UNESKO tərəfindən "Sualtı mədəni irs sahəsində ən yaxşı nümunə" mükafatı qazanıb.***



Bu layihə sualtı araşdırmaları, eramızdan əvvəl ikinci əsrə aid qayığın mühafizəsini, çay sahillərində bərpa işləri və s. özündə ehtiva edir. Arxeoloqlar tərəfindən Lyublyanitsa çayı yatağında tapılmış 400-dən artıq orijinal tarixi predmet Vrxnika şəhərində çayın sahili boyunca təşkil edilmiş sərgidə nümayiş etdirilib.

"The Slovenia Times" qəzetinin verdiyi məlumata görə, 2003-cü ildə milli əhəmiyyətli tarixi abidə elan olunan Lyublyanitsa Sloveniyanın ən mühüm, eləcə də ən çox risk altında olan arxeoloji abidələri sırasındadır. Eyni zamanda, onun UNESKO Ümumdünya İrs Siyahısına daxil edilməsi planlaşdırılır.

Qeyd edək ki, Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası Bakı şəhərində keçirilib. Bu sessiyada qəbul olunmuş yeni abidələrlə birlikdə Ümumdünya İrs Siyahısında yer alan abidələrin sayı 1121-ə çatıb.

*Elgün Niftəli*

## Okeanda suyun hərarətinin yüksəlməsi mərcan riflərinin məhvinə gətirib çıxarıb

***İqlim dəyişmələri səbəbindən Hind okeanında suyun hərarətinin yüksəlməsi Şri-Lanka sahillərindəki mərcan riflərinin 90 faizinin məhvinə gətirib çıxarıb.***



"İzvestiya" qəzeti xəbər verir ki, bu barədə Şri-Lankanın dəniz mühitinin mühafizəsi üzrə idarəsinin rəhbəri Terney Pradip Kumara bildirib.

Onun sözlərinə görə, buna suyun çirklənməsi və balıqçılığın qeyri-qanuni üsulları da öz mənfi təsirini göstərir. Bununla bağlı o, respublikanın akvatoriyasında 2030-cu ilədək yoxolma ehtimalı olan, cəmi 10 faizi qalan mərcanları "xüsusi mühafizə olunan rayonlara" aparmaq yolu ilə xilas etməyə çağırıb.

"Biz gözləyirik ki, bütün hökumət müəssisələri, özəl agentliklər və ekoloqlar birləşəcək, hökumətə bu rifləri xüsusi mühafizə olunan obyektlər elan etməkdə yardımçı olacaq, həmçinin onların qorunması məqsədilə canlı mərcan riflərinin daha dərin rayonlara aparılmasına kömək edəcəklər", - deyə Kumara bildirib.

Mərcanların bütün növləri mikroskopik yosunlarla simbioz şəklində mövcud olur. Yosunlar möhkəm strukturun əmələ gəlməsi üçün mərcanları bəsləyici maddələrlə və enerji ilə təmin edir. Həddən artıq ılıq sularda bu yosunlar mərcanlar tərəfindən rədd edilir və nəticədə məhv olurlar.

Martın ortalarında xəbər verilmişdi ki, italiyalı alimlər ölkənin cənub-qərb sahillərində nadir mərcan rifi aşkar ediblər. Bu, müxtəlifliyinə və quruluşuna görə Avstraliya və Maldiv adalarındakı mərcanlara bənzəyir. 2,5 kilometr uzunluğa malik bu ərazi Monopoli şəhəri yaxınlığında 30-55 metr dərinlikdə yerləşir.

## Küləklər ən böyük aysberqi dəniz marşrutlarının keçdiyi yollara apara bilər



***A68 adlanan planetin ən böyük aysberqi Antarktikadan ayrılıb.***

BBC telekanalının saytı xəbər verir ki, sahəsi 6 min kvadratkilometr olan bu nəhəng buz adasının Ağ qitədən qopması ekoloji problemlərlə bağlıdır. Aysberqin iki il davam edən hərəkəti ABŞ-ın peykləri tərəfindən mütəmadi olaraq qeydə alınıb.

Peykin göndərdiyi videomaterialda aysberqin Ueddel dənizində fırlandığı və onun Antarktikanın yarımadasına doğru hərəkət etdiyi görünür. Ən nəhəng buz dağının çəkisi trilyon tondur, onun sahəsi isə dörd London və altı Moskva ərazisindən çoxdur. Alimlər bildirirlər ki, aysberq yaxın vaxtlarda çox da uzağa üzə bilməyəcək. Lakin zamanla küləklər onu dəniz marşrutlarının keçdiyi yollara apara bilər ki, bu da çox təhlükəlidir. Digər mütəxəssislər isə, aysberqlərin yaranması prosesinin hər 20 ildə bir baş verdiyini və bunun ətraf mühit üçün təhlükəli olmadığını bildirirlər. Onların sözlərinə görə, Antarktidanın materik hissəsində buz kütləsi yığılır və bir müddət sonra qoparaq dənizə yol alır.

## Meduzaların yayılma sahəsi genişlənib

***Dəniz Tədqiqatları Milli İnstitutundan olan israilli alimlər ölkənin Aralıq dənizi sahilində toplanan meduzaların sayının artmasını müəyyən ediblər. Ekspertlərin sözlərinə görə, bu on milyonlarla onurğasızlar cənubdan şimala bütün sahil boyunca böyük populyasiya ilə hərəkət edir.***



Bu barədə İsrail KİV-lərinə istinadla xəbər verir.

Mütəxəssislərin sözlərinə görə, çimərliklərdə onurğalıların insan səhhəti üçün təhlükəli olan iki növü - "Pelagia noctiluca" və "Rhopilema nomadica" növləri bir yerə toplaşıb.

Onların buynuzları insan üçün yanıqlar və allergiyanın inkişafı ilə təhlükəlidir. Bundan başqa, meduzalar suya dalayan hüceyrələr buraxırlar ki, bunlar da yanmalara, gözə düşdükdə isə korluğa səbəb ola bilər.

Meduza ilə "təmas"dan yaxa qurtarmaq mümkün olmadıqda, həkimlər bədənin həmin hissəsini sirkəli məhlul və ya limon şirəsi ilə yumağı məsləhət görürlər. Bu cür yanmanı şirin su ilə yumaqla heç nəyə nail ola bilməzsiniz.

İsrailli mütəxəssislər xəbərdarlıq edirlər ki, bu il meduzaların çimərliklərə hücumu iyulun sonunadək davam edə bilər. Onların sözlərinə görə, onurğasızların bu cür davranışında heç bir qeyri-adilik yoxdur. Son illər ərzində meduzalar gözəçarpan dərəcədə artıblar və onların yayılma sahəsi ciddi şəkildə genişlənib.

"Hay-küy üçün heç bir əsas yoxdur. Hazırda meduzaların dalaması səbəbindən heç bir ölüm halı müəyyən edilməyib", - deyə Dəniz Tədqiqatları Milli İnstitutundan ekoloq Dor Adelist bəyan edib.

## Siam karpını sudan çıxarmaq üçün balıqçıya 1 saat 30 dəqiqə vaxt lazım gəlib



***Tailandda britaniyalı balıqçı Con Harvi dünyada ən böyük siam karpını və ya nəhəng şirbit balığını ovlayıb.***

"Daily Mail" nəşri xəbər verir ki, Con Harvinin ovladığı balığın çəkisi təxminən 105 kiloqram təşkil edib.

Britaniyalı tutduğu balıq ilə dünya rekordunu yeniləyə bilib: buna qədər ovlanan ən böyük siam karpı indikindən 4,5 kiloqram yüngül olub.

Balıqçının sözlərinə görə, siam karpını sudan çıxarmaq üçün ona 1 saat 30 dəqiqə vaxt lazım gəlib. "Balıq demək olar, müqavimət göstərmirdi, problem onun çəkisində idi. Mən səhv etmək istəmirdim və buna görə çox həyəcan keçirirdim", - deyə Con Harvi bildirib.

## Vikinqlər dövrünə aid qayıq-məzarlar tapılıb

***İsveç arxeoloqları bu ölkənin Qamla Uppsala qəsəbəsində vikinqlərin iki qayıq-məzarını tapıblar. CNN telekanalının saytı xəbər verir ki, qəbirlərdən biri qədim vəziyyətində qalıb və içərisində insan, it və at cəsədlərinin qalıqları var.***



İsveçin Milli Tarix Muzeyləri Agentliyinin ekspertlərinin rəyinə görə, arxeoloji ekspedisiyanın üzvlərinin planda nəzərdə tutulmuş qazıntılar apardığı zaman torpağın altından tapdıqları iki qədim qayıq-məzar tarix elminə yeni töhfələr verəcək. Ekspedisiya qrupunun məlumatında qeyd olunub ki, Arkeologernasaid adlanan yerdə tapılmış qayıq-məzarlar eramızın 550-800-cü illərinə - Vendel dövrünə (vikinqlərin Uppsala ərazisinə köç etdiyi dövr) və eramızın 800-1050-ci illərinə (Vikinqlər dövrü) aiddir. Tarixi mənbələrə görə, həmin dövrlərdə ölən insanların çoxu kremasiya olunurdu, ən şöhrətli sərkərdələri isə qayıqlarda dəfn edirdilər.

Arxeoloq Anton Seiler mətbuata açıqlamasında qeyd edib ki, vikinqlərdə ölülərin yandırılması ayini geniş yayılsa da, tapılan qayıq-məzarlar kiçik bir qrupa aid olan insanlara məxsusdur. Onun sözlərinə görə, qəbirlərdə olan cəsəd qalıqları vikinqlərin sərkərdələrinə aid olub. Arxeoloqlar qayıqlarda qılınc, naxışlı daraq, nizə və qalxan da aşkar ediblər. Qədim inanclara görə, vikinqlər ölən sərkərdənin bu əşyalardan və atından Odinin (Skandinaviya tanrısı) hüzurunda da istifadə edəcəyinə inanırdılar. Qayıqlardan digəri isə dağılmış vəziyyətdədir. Onun XVI əsrdə bu ərazidə aparılmış qazıntı işləri zamanı zərər gördüyü ehtimal olunur.

Arxeoloqlar qrupunun bu ərazidə qazıntılara ötən ilin payızında başladıqları, lakin şaxtalı havalar səbəbindən yarımçıq qoyduqları bildirilir. İyun ayında yenidən başlanan ekspedisiya 50 illik fasilədən sonra yenidən vikinqlərin qayıqlarını aşkar edə bilib. Onlar müasir texnologiyanın imkanlarından istifadə edərək bu tapıntılardan vikinqlərin tarixi üçün əlavə qiymətli faktlar əldə edilməsinə səy göstərəcəklər.

## Aralıq hövzəsi ölkələrində bəzi regionlar tullantılardan "yaxa qurtarmağın" yolunu sadəcə olaraq onları dənizə atmaqda görürlər

***Aralıq dənizi bir dəqiqədə orta hesabla 33 min 800 plastik butulka ilə çirkləndirilir.***

Bu barədə məlumatı Ümumdünya Vəhşi Təbiətin Mühafizəsi Fondunun (WWF) Avstriya nümayəndəliyi yayıb. Təşkilatın apardığı araşdırmalara görə, Aralıq dənizi sahilində yerləşən ölkələr bu dənizi hər il yarım milyon ton plastik tullantı ilə çirkləndirirlər, bu isə bir dəqiqədə 33 min 800 plastik butulka deməkdir. Aralıq hövzəsində yerləşən ölkələrdə dənizin hər bir kilometr sahili boyunca gün ərzində beş kiloqram plastik tullantı dənizə axıdılır. Dənizə axıdılan plastik tullantıların renkinqində əsas regionlar kimi Barselona, Təl-Əviv, Valensiya, Venesiya, Po çayı deltası, Marsel buxtası və Türkiyənin cənub-şərq sahilləri göstərilir.



Fondun Avstriya nümayəndəliyinin dəniz bioloqu Aksel Hayn bildirib ki, Aralıq dənizinin çirklənməsində əsas rolu kütləvi turizm oynayır. Tətil mövsümündə 200 milyona yaxın turistin üz tutduğu Aralıq sahillərində tullantılarla çirklənmədə 40 faizədək artım müşahidə olunur. Dənizə atılan plastik tullantılar digər tərəfdən iqtisadiyyata da baha başa gəlir. Hər il turizm, balıqçılıq və dəniz iqtisadiyyatı üçün bununla bağlı əlavə 641 milyon əlavə xərclər yaranır.

Təşkilatın analizinə görə, Aralıq hövzəsində acınacaqlı vəziyyətin kökündə sistem çatışmazlığı dayanır. Aralıq sahilindəki əksər ölkələrdə tullantıların çeşidlənməsi və təkrar emalı sistemi olmadığına və ya yarıtmaz vəziyyətdə olduğuna görə bəzi regionlar tullantılardan "yaxa qurtarmağın" yolunu sadəcə olaraq onları dənizə atmaqda görürlər. Aralıq hövzəsi ölkələrində hər il 24 milyon ton plastik tullantının 6,6 milyon tonunun nəzarətsiz şəkildə ləğv edilməsi (qeyri-leqal depolara yığılması və ya təbiətə atılması) ciddi problem olaraq qalmaqdadır.

*Elgün Niftəli*

## YARIZARAFAT, YARIGERÇƏK

**Ya həqiqətin üstündə əsəcəksən, ya da yalanların altında əziləcəksən.**

**Səhiyyə Nazirliyi xəbərdarlıq edir:yalanlara inanmaq səhhətiniz üçün zərərlidir.**

**Mən indiyədək görməmişəm ki, kiminsə pişiyini ağaca dırmaşdıran adam ağac kəssin.**

**Bir az da adamlığı olanın pulu nə qədər olsa, halal xoşu olsun!**

**Yaxşı ki, bəziləri çox yuxarıdan gedirlər. Nə gözüm görür, nə ürəyim bulanır.**

**Özünüzü ən çox özlərini ağıl dəryası sayanların "dəryası"ndan qoruyun.**

**Mənə elə gəlir ki, hətta saman altdan da yalnız təmiz su yeritmək lazımdır.**

**Analar bizi, həyat yoldaşlarımız isə övladlarımızı həmişə bağışlayırlar.**

**Hətta acı yeməyi xoşlayanlar da həqiqəti niyə xoşlamırlar?**

**Deyəsən pis adamlar pis adamları Allahın yaxşı adamları qoruduğundan yaxşı qoruyurlar axı...**

**Pulda gücə bax e... Çox adam yerişini də itirir.**

**Xoşbəxt olduğunu bilməyənlər ən bədbəxt, bədbəxt olduğunu bilməyənlər ən xoşbəxt adamlardır.**

**Dediklərimin üstünə adətən beş də qoyanlar demədiklərimin üstünə ən çox nə qədər qoya bilərlər?**

**Yalanın gücü hər cür ifadə oluna bilməsindədir.**

**Yaltaqlara baxanda adama elə gəlir ki, yaltaqlıq sağlamlığın rəhnidir.**

**Görəsən satqınlıq bəzi adamların alnına yazılıb? Az qalır ki, açıb baxam.**

**İndi yaxşı adamları çıraqla axtarırıq. Nə vaxtsa yəqin babat adamları belə axtaracağıq. Gün gələcək, adam axtaracağıq.**

**Məharət buna deyərlər e... Yalanı elə danışırlar, lap inanmağın gəlir.**

**Bəzilərinin nə yuvanın quşu olduğundan heç quşlar da baş açmaz.**

**Üstün cəhətləri olmayanlar adətən vəzifə üstünlüyünə can atırlar.**

**Nə qədər ki, sərf eləmir, heç kəs həqiqəti deməyəcək. Bazar iqtisadiyyatı deyil?**

**Pis adamlardan uzaq durmaq mümkün deyil. Onlardan harda yoxdur ki?**

**Sözünün yiyəsi olmayanın söz yiyəsi olmasından pis nə var?**

**Vəzifə soyuducu kimi şeydir. Olmayanda çox şey tez xarab olur.**

**Həyatı elə yaşa ki, ömrün başa çatanda deyəsən:mən Cənnətdə olmuşam.**

**Bəzi iş yerlərində boş ştatlar olmasa da, boş adamlar az deyil.**

**Kələk çox olan yerdə əmək az olar.**

**Allaha yaxın olmağın ən qısa yolu insanlıqdan uzaq düşməməkdir.**

**Tamam gözümdən düşməsinlər deyə, bəzilərini daha yaxından tanımaq istəməzdim.**

**Baxırsan, şalvar geyinib, başına papaq qoyub... Deyirsən:kişidir bu! Elə orda da aldanırsan.**

**Harda yaşamağından asılı olmayaraq insanın başı ən çox daşa dəyir.**

**Bəzi kişilər ağıllı qadınlardan qorxduqları kimi heç nədən qorxmurlar.**

**Hər kəs bir gün ayılır.**

**Xalqıma qurban olum. Hamı xalqa xidmətdən danışır.**

*Rasif TAHİROV*

# XV Avropa Gənclər Olimpiya Festivalında 38 ölkənin idmançıları medal qazanıblar



***Avropanın 48 ölkəsindən 3900-dək atletin mübarizə apardığı "EYOF Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalı yeddigünlük maraqlı idman mübarizəsindən sonra iyulun 27-də başa çatdı. Atletlər Bakıdakı 12 arenada idmanın on növü – idman gimnastikası, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında 135 dəst medal uğrunda mübarizə apardılar.***

Festivalda qaliblər üçün nəzərdə tutulan 300 qızıl, 300 gümüş və 330 bürünc medal 38 ölkənin idmançıları tərəfindən qazanılıb.

Bu mötəbər yarışda 23 medal – 10 qızıl, 7 gümüş və 6 bürünc qazanan Azərbaycan millisi komanda hesabında dördüncü pillədə qərarlaşıb. Medallardan 16-sını güləşçilərimiz qazanıblar. Pəhləvanlarımız 8 qızıl, 5 gümüş və 3 bürünc medala sahib olublar. Medalların sayına görə komandamızda ikinci yerdə cüdoçular qərarlaşıblar. Cüdoçular ölkəmizin aktivinə 2 qızıl, 1 gümüş və 3 bürünc medal yazdırıblar. Komandamız idman gimnastikası yarışında isə 1 gümüş medala sahib olub.

Siyahıya aktivində 66 (28 qızıl, 17 gümüş və 21 bürünc) medal olan Rusiya komandası başçılıq edir. Böyük Britaniya idmançıları 25 medalla (11 qızıl, 12 gümüş, 2 bürünc) ikinci, Türkiyə komandası isə 27 medalla (11 qızıl, 6 gümüş və 10 bürünc) üçüncü sırada qərarlaşıblar. İlk onluqda İtaliya (8-9-9), Ukrayna (8-7-10), İspaniya (7-4-10), Fransa (6-8-14), Polşa (6-3-6), Belarus (6-2-6) yığmaları yer alıblar.

Medal qazanan digər ölkələr isə aşağıdakılardır: Rumıniya (4-10-5), Almaniya (4-7-15), Xorvatiya (4-1-0), İsveç (3-1-2), Estoniya (3-0-2), Hollandiya (2-3-4), Finlandiya (2-3-1), Çexiya (2-1-3), İrlandiya (2-0-2), Norveç (1-6-2), Gürcüstan (1-5-7), Danimarka (1-1-3), Bolqarıstan (1-1-0), Kipr (1-0-2), İsrail (1-0-1), Kosovo (1-0-0), Avstriya (1-0-0), Macarıstan (0-9-12), Belçika (0-5-2), İsveçrə (0-2-2), Moldova (0-1-4), Yunanıstan (0-1-3), Serbiya (0-1-3), Portuqaliya (0-1-0), Litva (0-1-0), Latviya (0-0-1), Slovakiya (0-0-1) və Sloveniya (0-0-1).

XVI Avropa Gənclər Olimpiya Festivalı 2021-ci ildə Slovakiyanın Banska Bistritsa şəhərində keçiriləcək.

# Tokio Olimpiya Oyunlarının proqramına 33 idman növü daxildir

***2020-ci ildə Tokioda keçiriləcək Olimpiya Oyunlarının Təşkilat Komitəsi yarışların və tədbirlərin tam cədvəlini elan edib. Cədvəl Təşkilat Komitəsinin internet saytında yerləşdirilib.***

Olimpiya Oyunlarının proqramına 33 idman növü daxildir. Beysbol/softbol, karate, serfinq, qayayadırmanma və skeytbordinq üzrə yarışlar ilk dəfə keçiriləcək. Oyunların açılış mərasimi iyulun 24-də olacaq, bundan iki gün əvvəl isə qadın futbolu və softbol yarışları başlayacaq. Medalların ilk dəstinin qalibləri iyulun 25-də pnevmatik tüfəngdən 10 metr məsafədən atıcılıq üzrə qadınların turnirində məlum olacaq.

Yarışlarda daha çox final mərhələləri avqustun 1, 2 və 8-də keçiriləcək. Həmin günlər Tokioda müvafiq olaraq 21, 26 və 30 dəst medallar öz sahiblərinə təqdim ediləcək. Bundan başqa, yüngül atletikanın bir çox növü, o cümlədən sprinter qaçışları üzrə yarışların qalibləri də müəyyən ediləcək. Kişilər arasında marafonun final mərhələsi Olimpiya Oyunlarının bağlanış günü – avqustun 9-da keçiriləcək.

Qızmar havaların olacağı səbəbindən idmançıların və azarkeşlərin səhhəti üçün risklərin qarşısını almaq məqsədilə yarışların əksəriyyəti səhər vaxtı keçiriləcək. İyulun əvvəlində Tokioda aparılacaq Olimpiya məşəlinin estafet marşrutu da təsdiq olunub. O, 2020-ci il martın 26-da Fukusima prefekturasından start götürəcək və 121 gün davam edəcək.

2020-ci il Tokio Olimpiya Oyunları iyulun 24-dən avqustun 9-dək keçiriləcək.

# Sağlam həyat tərzi qocalıqla bağlı huşsuzluğun inkişaf riskini əhəmiyyətli dərəcədə azaldır



***"MedikForum" bildirir ki, bu günədək elmdə qocalıqla bağlı huşsuzluğun məhz hansı səbəbdən əmələ gəlməsi, onun müalicə edilməsi və ən azı əlamətlərinin inkişaf sürətini aşağı salmaq, yaxud hansısa üsulla bu sağalmaz xəstəliyin yaranma riskini azaltmaq barədə dəqiq məlumat yoxdur.***

Krossvordların həllinin bu təhlükəni azalda bilməsi barədə tədqiqatlar aparılıb. Lakin növbəti müşahidələr bu nəticələri təkzib edir. İndi Ekseter Universitetindən olan alimlər müəyyən ediblər ki, sağlam həyat tərzi qocalıqla bağlı huşsuzluğun inkişaf riskini əhəmiyyətli dərəcədə azaldır. Söhbət o adamlardan gedir ki, onlarda bu xəstəliyin əmələ gəlməsinə genetik zəmin mövcuddur. Bu, tədqiqatların nəticələrini daha dəyərli edir.

Tədqiqatın müəllifləri araşdırıblar ki, bu cür insanlarda demensiyanın hər hansı növünün əmələgəlmə ehtimalı 32 faiz azalır və bu, yalnız onların sağlam həyat tərzi aparacaqları təqdirdə baş verir. Bu, ilk irimiqyaslı tədqiqatdır ki, burada qocalıqla bağlı huşsuzluğa genetik, yəni irsi meyilliliyi həyat tərzində dəyişikliklərin aparılması hesabına nə dərəcədə azaltmağın mümkünlüyü təhlil edilib. Ümumilikdə, alimlər yaşı 60-dan yuxarı avropaəsilli 196383 nəfər üzərində müşahidə aparıblar. 8 il ərzində aparılan müşahidələrdə 1769 demensiya halı aşkar edilib.

Əvvəlcə müşahidə iştirakçılarını irsi qocalıq huşsuzluğuna meyillilikdən asılı olaraq üç qrupa bölüblər. Müəyyən edilib ki, sağlam həyat tərzinin əsaslarına riayət olunması genlərində yüksək riskliliyin olduğu 30 faizdən çox insanda demensiya ehtimalını aşağı salıb. Sağlam həyat tərzinin əsas qaydalarına gündə 5 dəfə qidalanmaq, siqaretdən imtina, müntəzəm fiziki iş, gündə azı üç pay meyvə və tərəvəz yemək, emal edilmiş və qırmızı ətdən imtina, həmçinin alkoqolun miqdarının azaldılması aid edilib.

# Dənizçilərin II Spartakiadasının qalibləri mükafatlandırılıb

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) əməkdaşlarının II Spartakiadasına yekun vurulub.***



Spartakiadaya ASCO-nun müxtəlif strukturlarından 400 iştirakçı qatılıb. Komandalar ümumilikdə idmanın 7 növü üzrə ( futbol, kəndirdartma, şahmat, dama, nərd, stolüstü tennis, üzgüçülük) güclərini sınayıblar.

Ümumi nəticələrə görə, Xəzər Dəniz Neft Donanması 81 xalla Spartakiadanın qalibi olub. "Bibiheybət" Gəmi Təmiri Zavodu 79 xalla ikinci, "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodu 71 xalla üçüncü yeri tutub.

Xəzər Dəniz Neft Donanmasının akt zalında Dənizçilərin II Spartakiadası qaliblərinin mükafatlandırılma mərasimi keçirilib. Məraismində çıxış edən ASCO-nun Sosial inkişaf və nəqliyyat şöbəsinin rəisi İlqar Oruclu iştirakçılara yarışlarda göstərdikləri fəallığa görə minnətdarlığını bildirib. O qeyd edib ki, belə tədbirlər işçilər arasında idmanın kütləviliyinin təmin və təbliğ olunması baxımından böyük əhəmiyyətə malikdir.

"Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunun Həmkarlar İttifaqı Komitəsinin sədri Azad Muradov spartakiadanın hər il keçirilməsinin vacibliyini vurğulayıb. Komitə sədri oyunlarda kişilərlə bərabər, xanımların da fəallıq göstərməsini müsbət hal kimi dəyərləndirib.

Daha sonra Sosial inkişaf və nəqliyyat şöbəsinin idman üzrə mütəxəssisi İxtiyar Asyabi spartakiada ilə bağlı fikirlərini bölüşüb və dənizçilərə gələcək işlərində müvəffəqiyyətlər arzulayıb.

Sonda çıxış edənlər spartakiadanın yüksək səviyyədə təşkil olunmasına görə bütün yarış iştirakçıları adından minnətdarlıqlarını bildiriblər.









# 2019/20 Avropa Kuboku mövsümünün iştirakçılarına təqribən 2,5 milyard avro ödəniləcək

***Avropa Futbol Assosiasiyaları İttifaqı (UEFA) qarşıdan gələn Avropa Kuboku mövsümündə maliyyə gəlirlərinin paylanması sistemini təqdim edib. Bu barədə məlumatı təşkilatın mətbuat xidməti açıqlayıb.***

Qarşıdan gələn Çempionlar Liqası, Avropa Liqası və UEFA Superkuboku yarışlarının kommersiya fəaliyyətindən ümumi gəlirlər təqribən 3,25 milyard avro təşkil edəcək. Həmin vəsaitin 295 milyon avrosu inzibati və təşkilati ehtiyacların təmin edilməsi, 227,5 milyon avrosu həmrəylik vergisi üçün ayrılacaq.

Turnir iştirakçılarına 2,55 milyard avro ayrılacaq. Bu vəsaitin 2,04 milyard avrosu Çempionlar Liqası və UEFA Superkuboku iştirakçıları, 510 milyon av-




rosu Avropa Liqası iştirakçıları arasında paylanacaq.

Çempionlar Liqasının qrup mərhələsində iştiraka görə 32 klubun hər birinə 15,25 milyon avro ödəniləcək, qrup mərhələsində matçda qələbəyə görə 2,7 milyon avro, heç-heçəyə görə 900 min avro məbləğində bonus veriləcək. 1/8 finala çıxan komandaların hər birinə 9,5 milyon avro, 1/4 finala çıxan komandaların hər birinə 10,5 milyon avro, yarımfinala çıxan komandaların hər birinə isə 12 milyon avro ödəniləcək. Finalda uduzan komanda 15 milyon avro, Çempionlar Liqasının qalibi isə 19 milyon avro alacaq.

Avropa Liqasının qrup mərhələsində oynayan klubların hər biri 2,92 milyon avro, qrup mərhələsində qələbə qazanan komanda 1 milyon məbləğində bonus, ikinci yeri tutan komandaların hər biri 500 min avro, qrup mərhələsində qələbə qazanan komandaların hər biri 570 min avro, heç-heç oynayan komandaların hər biri 190 min avro, pley-off mərhələsinə çıxan klubların hər biri 500 min avro, 1/8 finalın iştirakçılarının hər biri 1,1 milyon avro, 1/4 finalın iştirakçılarının hər biri 1,5 milyon avro, yarımfinalın iştirakçılarının hər biri 2,4 milyon avro alacaq. Avropa Liqasının finalçılarının hər birinə 4,5 milyon avro, qalib komandaya isə 4 milyon avro ödəniləcək.

UEFA Superkubokunun iştirakçılarının hər biri 3,5 milyon avro, qalib 1 milyon avro qazanacaq.

Avropa Liqasının ikinci təsnifat mərhələsinin iştirakçılarının hər biri 260 min avro, üçüncü təsnifat mərhələsinin iştirakçılarının hər biri 280 min avro, pley-off mərhələsinin iştirakçılarının hər biri 300 min avro alacaq. Çempionlar Liqasının üçüncü təsnifat mərhələsində iştirak edən klubların hər biri 480 min avro qazanacaq. Pley-off mərhələsində iştiraka görə isə heç bir ödəmə nəzərdə tutulmayıb.

# Saçların sağlamlığı onların necə və nə ilə yuyulmasından çox asılıdır

***Saç gözəlliyin əsas əlamətlərində biridir. Müasir dövrdə qadınların istənilən şəkildə saça malik olmaq imkanları var. Rəng, forma və düzümü seçmək hər kəsin zövqündən asılı olsa da, bu məsələdə ən əsası saçların təmizliyidir.***



Dermatoloq Solmaz Orucova deyir ki, saçlara qulluq yuyulmadan başlayır. Yuyulma zamanı hər şeyə nəzarət etmək lazımdır. Saçın sağlamlığı onların necə və nə ilə yuyulmasından çox asılıdır.

Saçın yuyulduğu su nə isti, nə də soyuq olmalıdır, ılıq sudan istifadə etmək daha yaxşıdır. İsti su piy vəzlərinin fəaliyyətini intensivləşdirir və nəticədə saçlar tez yağlanır. Soyuq su isə çirki tam təmizləyə bilmir. Şampun seçiminə də diqqətlə yanaşmaq lazımdır. Bu zaman saçların tipini dəqiqləşdirmək mühüm məsələlərdən biridir.

Əgər saç tez-tez yuyulmasına baxmayaraq yağlanırsa, deməli, yağlı saçlar üçün şampundan istifadə etmək lazımdır. Əgər saçlar quru, solğun, ucları haçalı və tez dolaşandırsa, quru və zədələnmiş saçlar üçün olan şampundan istifadə faydalıdır. Bu cür şampunlar həm də kimyəvi maddələr və boyamadan sonra xarab olmuş saçlara da məsləhət görülür. Kimyəvi təsirə və boyamaya məruz qalmayan parıltılı saçlar qadın üçün xəzinədir. Onların sağlamlığını isə mütləq qorumaq lazımdır. Belə olan təqdirdə normal saçlar üçün nəzərdə tutulan şampunlar uyğun gəlir. Orta uzunluqlu saçlar üçün şampunu fındıq həcmində, uzun saçlar üçün qoz həcmində götürmək lazımdır. Şampun əvvəlcə iki ovucun arasında sürtülərək köpükləndirilir və bundan sonra saçlara çəkilir. Köpüklü saçı ən azı 3 dəqiqə yaxalamaq lazımdır. İstifadə edilən şampun nə qədər yaxşı olsa da, hətta çox diqqətlə yuyulsa da, başın dərisindən saç üçün zərərli maddələri tam təmizləmir. Bunun üçün balzam-kondisioner və losyon-kondisionerdən istifadə etmək lazımdır.

Dermatoloqun dediyinə görə, şampunu eyni firmadan seçilmiş zərərli hissəcikləri neytrallaşdırır. Onlar qurudulan və nəm saçlara çəkilir, 2-3 dəqiqə saxlayandan sonra yuyulur. Balzam-kondisioner quru, losyon-kondisionerlər isə nəm saçlar üçün məsləhətdir. Yuyulandan sonra saçları mütləq təbii otların dəmləməsi ilə yaxalamaq lazımdır.

Daha sonra isə qaynar fendən istifadə etmək lazım deyil, ən yaxşısı isə saçın öz-özünə qurumasına imkan yaratmaqdır. Saçın qırıq, haçalanan uclarının uzanmasına imkan vermək lazım deyil. Ayda bir dəfə uclarını mütləq kəsdirmək lazımdır. Bu, saçın tez uzanmasına və səliqəli görünməsinə zəmin yaradır.

# İstivurma zamanı nə etməli?



***"MedikForum" istivurmanın əlamətləri, müalicəsi və ondan qorunmağın yolları barədə məlumat verir.***

İstivurma orqanizmdə mübadilə proseslərinin pozulmasına və ürək-damar problemlərinin yaranmasına səbəb olur. Məsələn, istivurma zamanı ürək qısılmaları sürətlənir, qan damarları sıxılır və nəticədə ürək, baş-beyin və böyrəklərin funksiyaları pozulur.

İstivurmada baş-beyin hüceyrələrinin fəallaşması nəticəsində onun fəaliyyəti pozulur. Fəal surətdə anticisimlər əmələ gəlməyə başlayır, hüceyrə funksiyaları pozulur, bədən vacib siqnallara artıq reaksiya vermir.

Başqa sözlə desək, insan ətrafında nələr baş verdiyini anlamaq iqtidarında olmur. Hərəkətlərinə, sözlərinə və fikirlərinə nəzarət etmək çətinləşir. O, cəmi bir neçə dəqiqə əvvəl olanları xatırlamaqda əziyyət çəkir, nə etdiyini başa düşmür. Məhz buna görə də istivurma əlamətləri müşahidə olunan insanı tək qoymaq olmaz.

İstivurmanın müalicəsinə dərhal başlanmalıdır. Əks halda baş-beyində labüd dəyişikliklər baş verir, daxili orqanların funksiyaları pozulur.

İstivurmanın iki növü var: onun passiv formasında maye çatışmazlığı müşahidə olunur, intensiv formasında istilikvermə prosesi pozulur.

İstivurmanın passiv formasının tam bir sıra əlamətləri var: yüngül başgicəllənmə, ürəkbulanma, ürəkdöyünmənin pozulması, təngnəfəslik. Bu zaman dərinin rəngi dəyişmir və bədənin temperaturu olduğu kimi qalır.

İstivurmanın orta dərəcəsinin əlamətləri başqadır. Bu zaman güclü başağrısı, gözlərin qaralması, tərləmə, hərarətin 40 dərəcəyə qədər yüksəlməsi, burundan qan açılması, suallara qeyri-müəyyən cavab verilməməsi, taxikardiya və ürəkgetmə kimi əlamətlər müşahidə olunur.

İstivurmanın ağır forması müvazinəti və eşitmə qabiliyyətini itirmə, şüurun dumanlanması, ürəkgetmə, qıcolma, yüngül hallüsinasiyalar, dərinin qızarması, ürəkdöyünmənin və təngnəfəsliyin sürətlənməsi, hərarətin 41-42 dərəcəyə qədər yüksəlməsi, bədənin susuzlaşması və hətta koma kimi hallarla müşayiət olunur.

İstivurma zamanı nə etməli? İlk növbədə xəstəyə rahat şərait yaradılmalıdır. Zərərçəkən kölgəlikdə yerdə yerləşdirilməlidir. Çoxları düşünür ki, istivurmaya məruz qalmış insan uzanmalıdır. Amma bu, belə deyil. Axı uzanan zaman beyinə qan axması güclənir və bu da yalnız xəstəyə ziyan vura bilər.

Xəstənin tənəffüsünü asanlaşdırmaq üçün onun yaxası açılmalı, ona bol su içirdilməli, dirsəklərinə və dizlərinin altına soyuq yaş dəsmallar qoyulmalıdır. Bu prosedur bədənin hərarətinin azaldılmasını sürətləndirir.

İstivurmadan əziyyət çəkən adama sərin su, limonlu yaşıl çay, yaxud da bədənin susuzlaşmasının qarşısını almağa kömək edən istənilən başqa içki verilməli, alnına soyuq kompres qoyulmalıdır.

İstivumanın orta və ağır formasında təcili yardım çağırılmalıdır. Adətən istivurmadan sonra orqanizm iki-üç gün ərzində bərpa olunur. Güclü susuzlaşma ilə müşayiət olunan ağır formanın müalicəsinə daha uzun müddət tələb oluna bilər.

İstivurmaya daha çox ahıllar, uşaqlar və idmançılar məruz qalırlar.

İstivurmanın profilaktikası. İsti yay günlərində istivurmaya məruz qalmamaq üçün təhlükəsizlik tədbirləri görmək, məsələn, təbii materiallardan açıq rəngli paltarlar geyinmək, müntəzəm su içmək, başı örtmək, günün ən qızmar çağında kölgəlik yerlərdə olmaq, yağlı yeməklərdən, alkoqollu içkilərdən imtina etmək, boğanaq yerlərdən qaçmaq, qoruyucu eynək və kremlərdən istifadə etmək, fiziki fəallığı azaltmaq lazımdır.

BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1029, Bakı şəhəri,
Heydər Əliyev prospekti, 152
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
12-36 (daxili)

Qəzetin təsisçisi:
"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet "Dəniz" qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və "Azərbaycan" nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 2494